# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN QURUCULARI

## GÖYÇAYLI DEPUTAT HACI HÜSEYN HACI ABDULLA OĞLU ƏFƏNDİYEV (1887 (*1893?)* – 1920)

BAKI – 2024

**Layihə rəhbəri:**

**Elxan Süleymanov**
*Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına*
*Yardım Assosiasiyasının Prezidenti*

**Müəllif:**

**Məhərrəm Zülfüqarlı**
*tarix elmləri doktoru, professor*

**Elmi redaktor:**

**Asif Hacılı**
*filologiya elmləri doktoru, professor*

**AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN QURUCULARI. GÖYÇAYLI DEPUTAT HACI HÜSEYN HACI ABDULLA OĞLU ƏFƏNDİYEV (1887 (*1893?)* – 1920).**
– Bakı: Mütərcim, 2024. – 76 səh.

*Kitab Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri, parlamentə Göyçaydan millət vəkili seçilmiş Hacı Hüseyn Hacı Abdulla oğlu Əfəndiyevin (1887-1920) ictimai-siyasi fəaliyyətinə həsr olunub. Parlamentdə "Əhrar" partiyasını təmsil edən H.H.Əfədiyev 1920-ci ilin martında Qarabağda baş vermis erməni qiyamının yatırılmasında könüllü olaraq fəal iştirak edib. XI sovet ordusu tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin işğalından (27 aprel 1920-ci il) dərhal sonra həbs olunub. 7 saylı xüsusi şöbənin müstəntiqinin 3 iyun 1920-ci il tarixli qərarı ilə güllələnməyə məhkum edilib və hökm icra edilib. Azərbaycan Respublika Prokurorluğunun 5 yanvar 1993-cü il rəyinə əsasən Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin 11 yanvar 1993-cü il, 11/13 saylı arayışı ilə Hacı Hüseyn Hacı Abdulla oğlu Əfəndiyevə bəraət verilib.*

$Z \frac{4702060000}{026}$ xx-24

© M.Zülfüqarlı, 2024

# MÜDƏRİCAT

ÖN SÖZ ....................................................................... 4

HACI HÜSEYN HACI ABDULLA OĞLU ƏFƏNDİYEVİN
İCTİMAİ-SİYASİ FƏALİYYƏTİ ....................................................................... 5

SOVET RUSİYASININ 27 APREL 1920-ci İL İŞĞALINDAN SONRA
H.H.ƏFƏNDİYEVƏ QARŞI TƏZYİQLƏR VƏ REPRESSİYA ARXİV
SƏNƏDLƏRİNDƏ ....................................................................... 30

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT ....................................................................... 70

# ÖN SÖZ

Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri, parlamentə Göyçaydan millət vəkili seçilmiş Hacı Hüseyn Hacı Abdulla oğlu Əfəndiyev haqqında əhali arasında çox az məlumatın olması ciddi narahatlıq doğurmaya bilməz. Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının nəşr etdiyi “Göyçay tarixi” kitabında onun haqqında qısa məlumat verdikdən sonra bu məsələ daha çox diqqət cəlb etməyə, daha çox aktuallıq kəsb etməyə başladı.

“Göyçay Ensiklopediyası” nəşrə hazırlanarkən H.H.Əfəndiyevin ixtisasca həkim olan nəvəsi Hüseynağa Tofiq oğlu Abdullayev bizə müraciət edərək nəşr etdiyimiz kitabda onun babası haqqında məlumat verdiyimizə görə təşəkkürünü bildirdi. Bundan əlavə o, “Göyçay Ensiklopediyası”nda babası haqqında daha geniş məlumat verilməsi üçün bizə bəzi arxiv sənədlərini və şəkilləri təqdim etdi. Ensiklopediya nəşrinin qoyduğu tələblərə uyğun olaraq biz “Göyçay Ensiklopediyası”nda H.H.Əfəndiyev haqqında qısa avtobioqrafik məlumat verməklə kifayətləndik. Bizə təqdim olunan sənədləri və şəkilləri ensiklopediyada tam şəkildə vermək qeyri mümkün olduğundan ensiklopediyaya əlavə kimi ayrıca kitab kimi nəşr etməyi lazım bildik. Sizə təqdim olunan bu kitab bizim təşəbbüsümüzlə ilk dəfə nəşr olunan “Göyçay Ensiklopediyası”na əlavə kimi nəşr olunub.

Gələcəkdə də biz Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətlər haqqında obyektiv məlumatı ictimaiyyətin diqqətinə çatdırmaq sahəsində başladığımız işləri davam etdirəcəyik.

*Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım*
*Assosiasiyasının Prezidenti*
***Elxan Süleymanov***

# HACI HÜSEYN HACI ABDULLA OĞLU ƏFƏNDİYEVİN İCTİMAİ-SİYASİ FƏALİYYƏTİ



Azərbaycan Xalq Cümhuriyyəti qurucularından biri olan Hacı Hüseyn Hacı Abdulla oğlu Əfəndiyev haqqında elmi ədəbiyyatda məlumat çox azdır. Hətta Azərbaycan Xalq Cümhuriyyəti qurucularına aid nəşr olunmuş kitablarda da təəssüf ki, onun adına rast gəlinmir [7; 35].

H.H.Əfəndiyev gənc yaşlarından Azərbaycan istiqlalı uğrunda mübarizənin önündə olmuşdur. Lakin dünya dövlətləri tərəfindən de-fakto tanınmış Azərbaycanın Xalq Cümhuriyyətinin Sovet Rusiyasının XI ordusu tərəfindən işğal edilməsi ilə bir çox gənc vətənpərvər kimi onun da arzu və istəklərinin üstündən qara xətt çəkmişdir. XI ordunun 7 saylı xüsusi şöbəsinin müstən-

tiqinin qərarı ilə 27 yaşında güllələnmiş H. H. Əfəndiyevin ictimai-siyasi fəaliyyəti, qısa, lakin çox mənalı həyatı barədə tədqiqat işləri aparmaq, kitab və məqalələr nəşr etmək əvvəlki illərdə olduğu kimi, bu gün də aktual olaraq qalır. Sizə təqdim olunan bu kitab Azərbaycan Xalq Cümhuriyyəti qurucularından biri olan H.H.Əfəndiyevin fəaliyyətinə həsr olunmuş ilk kitabdır. İnanırıq ki, gələcəkdə bu sahədə elmi araşdırmalar davam edəcək və daha sanballı kitab və məqalələr yazılacaqdır.

***Hacı Hüseyn Hacı Abdulla oğlu Əfəndiyev (1887-1920)***

***H.H.Əfəndiyev 1887-ci ildə Göyçay rayonunda anadan olub. Sovet hakimiyyətinin XI ordusunun Xüsusi şöbəsinin 1920-ci ilə aid istintaq sənədlərində (Sənədlərin surəti kitaba daxil edilib) onun yaşı 27 göstərildiyindən, anadan olduğu ilin 1887-ci il deyil 1893-cü il olduğu ehtimal olunur. Azərbaycan Respublikası Prokurorluğunun 29/853 saylı 10.02. 1993-cü il tarixli arayışında onun 1893-cü ildə anadan olduğunun qeyd olunması da bu ehtimalı daha da artırır.***

***H.H.Əfəndiyev Göyçay qəzasından Azərbaycan Xalq Cümhuriyyəti parlamentinə seçilib. 15 dekabr 1918 – 27 aprel 1920 tarixlərində Parlamentin deputatı olub. Parlamentdə Əhrar Fraksiyasında təmsil olunan 8 deputatdan biri kimi Etibarnamə və Maliyyə, Büdcə komissiyalarının üzvü olub.***

***1920-ci ilin martında ermənilərin Qarabağda dövlət əleyhinə başladığı qiyamın yatırılmasında fəal iştirak edib.***

***Azərbaycan Xalq Cümhuriyyətinin Sovet Rusiyasının XI qırmızı ordusu tərəfindən işğalından (27 aprel 1920-ci il) dərhal sonra həbs olunub. 7 saylı xüsusi şöbənin müstəntiqinin 3 iyun 1920-ci il qərarı ilə güllələnməyə məhkum edilib və hökm icra edilib. Tarixi faktlar sübut edir ki, H.H.Əfəndiyev güllələnərkən cəmi 27 yaşı olub.***

***Azərbaycan Respublikası Prokurorluğu (29/853 saylı 10.02.1993 cü il tarixli arayış) SSRİ Ali Soveti Rəyasət Heyətinin 16.01.1989-cu il tarixli "30-40 və 50-ci illərin əvvəllərində repressiya qurbanları haqqında ədalətin bərpa edilməsi barədə əlavə tədbirlər haqqında" fərmanının I maddəsinə əsasən Hacı Hüseyn Hacı Abdulla oğlu Əfəndiyevə 05.01.1993-cü ildə bəraət verilmişdir. Azərbaycan Milli Təhlükəsizlik Nazirliyinin H.Əfəndiyevin nəvəsi Hüseynağa Tofiq oğlu Abdullayevin adına göndərilmiş 11/13 saylı 11 yanvar 1993-cü il tarixli arayışda da Azərbaycan Respublikası Prokurorluğu 05.01.1993-cü ildə Hacı Hüseyn Hacı Abdulla oğlu Əfəndiyevə bəraət verilməsi təsdiq olunur (Hər iki arayışın sürəti kitaba əlavə olunub).*** [4, s.348; 16, s.102; 38, s.163-164].

Azərbaycan Milli Şurasının 1918-ci il 19 noyabr tarixli qanununa əsasən hələ 1917-ci ilin sonlarında Ümumrusiya Müəssislər Məclisinə seçilmiş 44 nəfər türk-müsəlman deputat birbaşa yeni yaradılacaq Parlamentin tərkibinə daxil edildi. Müsəlmanlar üçün nəzərdə tutulmuş qalan 36 deputat və başqa millətlərin nümayəndələri yenidən seçilməli, yeni Parlamentin formalaşdırılması 1918 il dekabrın 3-də başa çatdırılmalı idi. [4, s.36] Həmin qanuna əsasən, Parlamentdə ölkə ərazisində yaşayan bütün xalqlar, hətta sayca çox az olduqlarına görə Parlament seçkilərində iştirak etmək hüququ olmayan xalqlar da təmsil olundular. Cümhuriyyət Parlamentində yerlər aşağıdakı kimi bölüşdürülmüşdü: türk-müsəlman əhali – 80, ermənilər – 21, ruslar – 10, almanlar – 1, yəhudilər – 1, gürcülər – 1, polyaklar – 1, Bakı həmkarlar ittifaqları – 3, Bakı Neft Sənayeçiləri Şurası və Ticarət-Sənaye İttifaqı – 2. [4, s.32; 6, s. 11-12]

1918-ci ilin dekabr ayında Parlamentdə 38 millət vəkili Müsavat partiyasını, 11 millət vəkili İttihadı, 12 millət vəkili sosialistləri, 10 millət vəkili Əhrar partiyasını, 9 millət vəkili bitərəfləri, 7 millət vəkili daşnaksütyun partiyasını, 4 millət vəkili digər erməniləri, 5 millət vəkili isə digər azlıqları təmsil edirdi. [23, s.92; 65, s.195-196]

AXC parlamentinin əsas özəyini keçmiş Milli Şuranın 44 üzvü təşkil edirdi. Daha 36 müsəlman deputat isə keçmiş milli komitələrin xətti ilə şəhər və qəzalardan seçilmişdi. Şəhər özünüidarəsi və milli komitələri olmayan qəzalarda deputatlar kənd icmaları nümayəndələrinin qurultayı tərəfindən seçilə bilərdilər. Qanun da ərazi proporsiyası müəyyənləşdirilirdi: a) Türk-müsəlman əhalisindən Bakı – 5, Göyçay qəzası – 2, Cavad qəzası – 2, Quba qəzası – 2, Lənkəran qəzası – 2, Şamaxı qəzası – 2, Gəncə qəzası – 2, Ərəş qəzası – 2, Cavanşir qəzası – 1, Zəngəzur qəzası – 2, Qazax qəzası – 1, Cəbrayıl qəzası – 1, Nuxa qəzası – 2, Şuşa qəzası – 2, Zaqatala qəzası – 2, İrəvan quberniyasının türk-müsəlman hissəsi – 3 və Tiflis quberniyasının türk-müsəlman hissəsindən – 1 nəfər. [2, s.377]

Cümhuriyyətin parlamentində təmsilçilik üçün ayrılmış kvotaya görə Göyçay qəzasından biri şəhərdən, bir isə qəzanın kəndlərindən olmaqla 2 millət vəkilinin təmsilçiliyini nəzərdə tutulmuşdur. Lakin araşdırmalar nəticəsində məlum olmuşdur ki, Azərbaycan Xalq Cümhuriyyəti parlamentində Göyçay qəzasını 4 millət vəkili təmsil etmişdir. Göyçay qəzasından Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları kimi tarixə düşmüş şəxsiyyətlər Sadıq bəy Hacı İsmayıl oğlu Ağabəyzadə (1865-1944), Mustafa Hacı Musa oğlu Mahmudov (1878-1937), Rza bəy Həzrət bəy oğlu Ağabəyov (1894-1961), Hacı Hüseyn Hacı Abdulla oğlu Əfəndiyev (1887-1920) olmuşdur.

Parlamentdə Göyçay qəzasına ayrılmış 2 deputat yeri olduğu halda 4 deputatın təmsil olmasının səbəbini aydınlaşdırmaq üçün kiçik bir izahata ehtiyac var. Göyçay şəhərindən Sadıq bəy Hacı İsmayıl oğlu Ağabəyzadə parlamentə seçilib, İttihad fraksiyasının üzvü kimi 1918-ci il 15 dekabrdan – 1919-cu il fevralın 4-nə kimi parlamentdə deputat olub. Sonradan o, daxili işlər nazirinin müavini vəzifəsi daşıdığına görə deputatlıqdan istefa vermiş onun yerinə Rza bəy Ağabəyov parlamentdə Müsavat və bitərəflər fraksiyasının üzvü kimi 7 aprel 1919 – 27 aprel 1920-ci il tarixlərində Göyçay şəhərini təmsil edib. [38, s.141-142]

Sadıq bəy Ağabəyzadə və Rza bəy Ağabəyovun eyni soydan – qədim Ağabəylilər soyadından olduğu bildirilir. [10]

Göyçay qəzasından Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində təmsil olunan 4 deputat 3 partiyanı təmsil etmişlər. Bunlardan ikisi Müsavat, biri İttihad, biri isə "Əhrar" partiyasının üzvü olmuşdur. Bu fakt Azərbaycan Xalq Cümhuriyyəti dövründə çoxpartiyalılığın, demokratiyanın nəinki paytaxtda, həm də regionlarda, o cümlədən Göyçayda inkişaf etdiyini sübut edir. [38, 141-142; 39, 28 may 2022, №112, s.14]

Parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə Azərbaycanda parlamentçilik ənənələri getdikcə möhkəmlənir və inkişaf edir, ən müasir parlament mədəniyyəti formalaşırdı. Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu dövrdə, ümumiyyətlə, Parlamentin 155 iclası keçirilmişdir ki, bunun da 10-u Azərbaycan Milli Şurasının (1918, 27 may - 19 noyabr), 145-i isə Azərbaycan Parlamentinin fəaliyyət göstərdiyi dövrdə (1918, 7 dekabr - 1920, 27 aprel) olmuşdur. Parlamentin müzakirəsinə 270-dən çox qanun layihəsi çıxarılmış, onlardan 230-a yaxını qəbul olunmuşdu. Qanunlar qızğın və işgüzar fikir mübadiləsi şəraitində müzakirə olunur, özü də yalnız üçüncü oxunuşdan sonra qəbul edilirdi. Parlament qanunlarının hazırlanması, müzakirəsi və təsdiq olunmasında 11 fraksiya və qrupa mənsub olan millət vəkilləri iştirak edirdilər. [6, s.9]

M.Ə.Rəsulzadənin yeni Parlamentin çağırılması ilə bağlı olaraq 1918 il noyabrın 29-da xalqa etdiyi müraciətdə Azərbaycan Xalq Cümhuriyyətinin milli azlıqların hüquqlarına necə həssaslıqla yanaşdığı aydın şəkildə görünür. M.Ə.Rəsulzadənin müraciətində deyilir: "... bizə fəlakət və səfalətdən başqa bir şey verməyən ədavət və ixtilafı bir tərəfə qoyaq. Tarix hamımızı bir yerdə yaşamaq məcburiyyətində qoyub. Yeni başlayan həyatın təbii məşəqqətlərini asanlıqla çəkmək üçün yaşayışımızı ağıl və insani əsaslar üzərində quraq, bir-birimizi sevək, ehtiram edək. Milli və məzhəb fərqlərinə baxmayaraq, bütün Azərbaycan vətəndaşları bir vətənin övladlarıdır. Ümumi vətəndə müştərək həyatlarını

qurmaq və öz səadətlərinə birlikdə yetişmək üçün onlar bir-birinə əl uzatmalı və yardım etməlidirlər”. [6, s.7]

Məhəmməd Əmin Rəsulzadə Azərbaycan əhalisinə müraciətində bildirirdi ki, azlıqda qalan millətlərin və məmləkətin bütün vilayətlərinin nümayəndələrinin də təmsil olunacağı yeni Parlament yurdumuzun sahibi olacaq, onun müqəddəratını həll, hökumətini təşkil və mənafeyini müdafiə edəcək. 1918 il dekabrın 7-də saat 13.00-da H.Z.Tağıyevin qız-məktəbinin binasında (hazırda Füzuli adına Əlyazmalar institutunun yerləşdiyi bina) Azərbaycan Parlamentinin təntənəli açılışı oldu. Bu, bütün müsəlman Şərqində o dövrün ən demokratik prinsipləri əsasında formalaşdırılmış Parlament idi.



*Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvləri*

Hacı Hüseyn Əfəndiyev (1887-1920) isə parlamentdə “Əhrar” fraksiyasının üzvü kimi 15 dekabr 1918 – 27 aprel 1920-ci il tarixlərində Göyçay qəzasının təmsil edib. Bu deputatların hər üçü Göyçay qəzasından parlamentə seçiliblər. Mustafa Mahmudov (1878-1937) isə Zaqafqaziya Seymində Azərbaycanı təmsil etmiş 44 deputatdan biri kimi Azərbaycan Xalq Cümhuriyyəti yaranarkən parlamentin üzvü olub.

Hacı Hüseyn Əfəndiyevin təmsil etdiyi "Əhrar" ("Azadlıqsevər") siyasi partiya kimi 1918 ilin payızında Bakıda yaradılmışdır. Sədri A.Qardaşov idi. "Əhrar"ın fəaliyyəti, əsasən, Azərbaycan Xalq Cümhuriyyəti (AXC) parlamentində təmsil olunan və 9 deputatdan ibarət eyniadlı fraksiya çərçivəsində olmuşdur. Fraksiyanın üzvləri A.Qardaşov, R.Qaplanov, A.Əfəndizadə, Q.Kərim oğlu və b. idilər. "Əhrar"ın bəyannaməsi A. Əfəndizadə tərəfindən 1918-ci il dekabrın 26-da parlamentin iclasında açıqlandı. Bəyannamədə AXC-nin qurulması alqışlanmaqla yanaşı, hökumətin fəaliyyəti tənqid edilirdi. "Əhrar" aqrar islahatlarla bağlı mülkədar torpaqlarının kəndlilər arasında bölüşdürülməsi, fəhlə məsələsində isə 8 saatlıq iş günü, əməyin mühafizəsi tələblərinin tərəfdarı idi. 1919 il aprelin 14-də "Əhrar" fraksiyasından Rəşid xan Qaplanov maarif və dini etiqad naziri, Aslan bəy Qardaşov isə əkinçilik naziri kimi N.Yusifbəylinin başçılıq etdiyi dördüncü hökumət kabinetinə daxil oldular. N.Yusifbəylinin 5-ci koalisiya kabinetində R.Qaplanov ticarət, sənaye və ərzaq naziri təyin olundu. Aprel işğalı (1920) ərəfəsində bir neçə partiya – "İttihad", sosialistlər və "Əhrar" birləşərək hökumətə etimadsızlıq göstərdilər və bununla da 11-ci Qırmızı ordunun müdaxiləsi ərəfəsində hakimiyyət böhranını gücləndirdilər. 1920-ci il aprelin 15-də A.Qardaşov "Əhrar" nümayəndələrinin koalisiya hökumətindən çıxması barədə bəyanat verdi. "İttihad" və "Əhrar" fraksiyaları sonradan bolşeviklər də daxil olmaqla yeni koalisiya hökumətinin yaradılmasına razı olsalar da, artıq bolşeviklər koalisiya hökumətindən imtina etdilər və hakimiyyətin təhvil verilməsini tələb etdilər. 11-ci Qırmızı ordu aprelin 28-də Bakıya daxil olduqdan sonra "Əhrar" partiyasının siyasi fəaliyyətinə son qoyuldu. [57]

Maraqlı burasındadır ki, Azərbaycanda "Əhrar", "İttihad" kimi partiyalar yaranarkən Osmanlı Türkiyəsində 1908-ci ildə II Məşrutənin elanından sonra yaranmış liberal "Əhrar" firqəsi, "İttihadi Mühəmmədi" cəmiyyəti və s. partiyaların təcrübələrindən yararlanmışlar. [58;59; 61;63;64]

Osmanlı dövlətində "Əhrar" firqəsi 14 sentyabr 1908-ci ildə yaranmış və 1908-1910-cu illərdə fəaliyyət göstərmişdir. Partiyanın əsas siyasi baxışları liberalizm, sahibkarlıq azadlığı, qeyri-mərkəzləşmə (yerli hökumətlərə səlahiyyət verilməsi, mərkəzi hakimiyyətin məhdudlaşdırılması) və fərdiyyətçilik idi. Fikrimizcə indiki anlamda bu mərkəzi hakimiyyətin səlahiyyətlərinin məhdudlaşdırılması, yerli özünü idarənin, yəni bələdiyyələrə səlahiyyətinin artırılması deməkdir. Lakin o zaman "Əhrar" mərkəzsizləşdirmə baxışına görə separatizmdə ittiham olunurdu. "Əhrar" yəqin ki, sultanlığın qorunub saxlanmasını ölkə üçün bir növ birləşdirici ənənə kimi müdafiə edirdi, lakin onun proqramında sultandan heç bir söz açılmamağı, II Əbdülhəmid rejimindən narahat olmasının nəticəsi kimi yozulurdu.

Partiyanın qurucuları Nureddin Ferruh (Alkend), Ahmet Fazlı, Kıbrıslı Tevfik, Nazım, Şevket, Celalettin Arif, Mahir Sait, Dr. Nihat Reşat (Belger), Tahir Hayrettin, Ahmet Samim Bey, Damat Salih Paşa, Fazıl, Mabeyinci Reşit Beyler olmuşdur. Partiyanın fəaliyyətinə kənardan şahzadə Sabahəddin istiqamət verdiyi ehtimal olunurdu. Partiya qurucularından olan Ahmet Fazlı ve Dr. Nihat Reşat 1902-ci ildə şahzadə Sabahəddin ilə bərabər Parisdə yaradılan "Təşəbbüs-i Şahsi ve Ədəmi Mərkəziyet Cemiyeti"nin qurucularından olmuşlar. Osmanlı dövlətində "Əhrar" firqəsinə İkdam", "Sabah", "Yeni Gazete" və "Sadayı Millet" qəzetləri dəstək vermişdir. Şahzadə Sabahəddin sağ qolu və süd qardaşı olan Ahmet Fazlı Bey tərəfindən yaradılan "Osmanlı" qəzeti də "Əhrar" partiyasına dəstək vermək üçün nəşrə başlamışıdır. [64, s.195]

Türkiyədə İkinci Konstitusiya Dövründə 1908-ci ilin noyabr-dekabr ayları arasında türk demokratiyası tarixində ilk çoxpartiyalı seçki hesab olunan ilk parlament seçkiləri keçirilib. Seçkidə İttihad və Tərəqqi partiyası, təşkilatlanmasını hələ başa çatdırmamış "Əhrar" partiyası iştirak edirdi. [15]

Azərbaycan "Əhrar" partiyasının orqanı olan qəzet nəşr edilmişdir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə aşağıdakı qəzetlər nəşr olunmuşdur ki, bunlardan biri də "Əhrar" partiyasının

orqanı idi: “Azərbaycan” (1918-1920) qəzeti, “Azərbaycan Hökumətinin Əxbarı” (1918-1920), “İttihad” (İttihadi İslam Partiyasının orqanı), “İl” (“Əhrar” partiyasının orqanı), “Doğru yol” (Menşevik Sosialistlərin orqanı), “Xalqçı” (Azərbaycan Xalqçı Sosialistlər Partiyasının orqanı), “Al bayraq” (Müstəqil Sosialistlərin orqanı), “Xalq sözü” (Müstəqil milliyyətçi mühərrirlərin orqanı), “Evraqi Nəfisə” (sənət dərgisi), “Zəhmət Həyatı” və “Qurtuluş yolu” (kooperativçilər dərgisi), “Mədəniyyət Məcmuəsi” (milliyyətçi münəvvərlərin dərgisi), “Müsavat” (“Müsavat” Partiyasının orqanı) və “İstiqlal” (eyni partiyanın orqanı) [27, s.101-102; 60, s.8-12]

AXC Parlamentində ümumiyyətlə 11 fraksiyasa fəaliyyət fəaliyyət göstərib. Parlament daxili mübarizəni daha yaxşı başa düşmək üçün 1918-1920-ci illərdə fəaliyyət göstərmiş aşağıdakı 11 fraksiya üzvlərini yaxından tanımağa ehtiyac var.

1. **I “Müsavat” və bitərəflər fraksiyası:** 1. Məhəmməd Əmin Rəsulzadə. 2. Həsən bəy Ağayev. 3. Nəsib bəy Yusifbəyli (Yusifbəyov). 4. Xəlil bəy Xasməmmədov. 5. Məmməd Həsən Hacınski. 6. Abbas-qulu Kazımzadə. 7. Musa bəy Rəfizadə (Rəfiyev). 8. Şəfi bəy Rüstəmbəyli (Rüstəmbəyov). 9. Cavad bəy Məlik Yeqanov. 10. Mehdi bəy Hacınski. 11. Mehdi bəy Hacıbababəyov. 12. Rəhim bəy Vəkilov. 13. Hacı Səlim Axundzadə. 14. Mustafa Mahmudov. 15. Asəfbəy Şıxəlibəyov. 16. Əhməd Həmdi Qaraağazadə. 17. Abuzər bəy Rzayev. 18. Ağa Əminov. 19. Nəriman bəy Nərimanbəyli (Nərimanbəyov). 20. Mirzə Sadıx Axundzadə. 21. Müseyib bəy Axıcanov. 22. Mustafa bəy Vəkilov. 23. Məmməd Bağır Şıxzamanov. 24. Məmmədəli Rəsulzadə. 25. Murtuza Axundov. 26. Rza bəy Ağabəyov. 27. Məmmədrza Vəkilov. 28. Cəlil bəy Sultanov. 29. Əşrəf Tağıyev. 30. Məmməd Yusif Cəfərov. 31. Mirzə Əsədullayev. 32. Yusif Əhmədzadə (Əhmədov). 33. Baxış bəy Rüstəmbəyov. 34. Fətəlixan Xoyski. 35. Ağa bəy Səfərəliyev. 36. Əsədulla Əhmədov. 37. Ağa Aşurov. 38. Qulamhüseyn bəy Kazımbəyov. 39. Yusifəli Əliyev. 40. Mir Hidayət Seyidov.

2. **II. “İttihad” fraksiyası**: 1. Qara bəy Qarabəyli (Qarabəyov). 2. Mir Yaqub Mehdiyev. 3. Qazi Əhməd bəy Məhəmmədbəyov. 4. Cəmil bəy Ləmbəranski. 5. Bəhram bəy Vəzirov. 6. Sultanməcid Qənizadə (Qəniyev). 7. Həmdulla Əfəndi Əfəndizadə. 8. Zeynal bəy Vəzirov. 9. Heybətqulu bəy Məmmədbəyli (Məmmədbəyov). 10. Əli bəy Zizikski. 11. Qara bəy Əliverdilər. 12. Əsəd bəy Əmirov. 13. İsgəndər bəy Axundov. 14. Ağa bəy Səfərəliyev
3. **III. "Əhrar" fraksiyası**: 1. Aslan bəy Qardaşov. 2. Hacı Molla Əhməd Nuruzadə. 3. Muxtar Əfəndi Əfəndizadə. 4. Qərib Kərimoğlu. 5. Bayram Niyazi Kiçikxanlı (Kiçikxanov). 6. Hacı Hüseyn Əfəndiyev. 7. Qasımoğlu Hacı Əli. 8. Abdulla Əfəndi Qabulov.
4. **IV. Sosialistlər fraksiyası:** 1. Səməd ağa Ağamalıoğlu (Ağamalov). 2. Əliheydər Qarayev. 3. Qasım bəy Camalbəyov. 4. Hacı Kərim Sanılı (Sanıyev). 5. Əhməd bəy Pepinov. 6. Camo bəy Hacınski. 7. Rza bəy Qaraşarlı (Qaraşarov). 8. Aslan bəy Səfikürdlü (Səfi-kürdski). 9. İbrahim Əbilzadə (Əbilov). 10. Bağır Rzayev. 11. Vladislav Bakradze. 12. Əkbər ağa Şeyxülislamzadə (Şeyxülislamov). 13. İbrahim İsmayılzadə. 14. Abbas bəy Atamalıbəyov. V. Bitərəflər fraksiyası 1. Bəhram bəy Axundov. 2. Behbud xan Cavanşir. 3. Əbdüləli bəy Əmircanov. 4 Əhməd bəy Ağayev.
5. **VI. Müstəqillər fraksiyası:** 1. Əlimərdan bəy Topçubaşov. 2. Səməd bəy Mehmandarov. 3. Xudadat bəy Məlik-Aslanov. 4. Baba bəy Qəbul-zadə (Qəbulov).
6. **VII. Sol müstəqillər fraksiyası**: 1. Abdulla bəy Əfəndizadə (Əfəndiyev).
7. **VIII. “Slavyan-rus cəmiyyəti” fraksiyası:** 1. Viktor Klenevski. 2. Vasili Kravçenko. 3. Sergey Remizov. 4. M.N.Vinoqradov. 5. Fyodor Kotilevski.
8. **IX. Milli azlıqlar fraksiyası:** 1. Lorens Kun. 2. Moisey Quxman. 3. Vasil Kujim. 4. Stanislav Vonsoviç. 5. Dubrovski. 6. Ollonqren V.K. 7. Mixaylov S.M.

9. **X. Ermәni fraksiyası**: 1. Arşak Paronyan. 2. Yervan Taqionosov. 3. İsak Xocayev. 4. Stepan Taqionosov. 5. Georgi Şahnazarov.
10. **XI. "Daşnaksutyun" fraksiyası:** 1. Arşak Malxazyan. 2. Xoren Amaspür. 3. Poqos Çubaryan. 4. Abqar Papyan. 5. Aleksandr Ter-Azaryan. 6. Boqdan Balayans. 7. Papyan İ. [8, s.117-118].

"Әhrar" partiyasının sәdri Aslan bәy Qardaşov Tiflisdә 28 may 1918-ci ildә Azәrbaycan Xalq Cümhuriyyәtinin yaranması ilә bağlı elan olunmuş "İstiqlal bәyannamә"sinә imza atan şәxsiyyәtlәrdәn biri olub.

İstiqlal Bәyannamәsi bütün türk-müsәlman dünyasında, ümumiyyәtlә bütün Şәrqdә, ilk dәfә olaraq Azәrbaycanda әn demokratik respublika idarә üsulunun – parlamentli respublikanın yaradılacağından xәbәr verirdi. Azәrbaycan Milli Şurasının İstiqlal Bәyannamәsindә deyilirdi:

1. Bu gündәn etibarәn Azәrbaycan xalqı hakimiyyәtә malik olduğu kimi, Cәnubi-Şәrqi Zaqafqaziyanı әhatә edәn Azәrbaycan da tam hüquqlu müstәqil bir dövlәtdir.
2. Müstәqil Azәrbaycan dövlәtinin idarә forması Xalq Cümhuriyyәtidir.
3. Azәrbaycan Xalq Cümhuriyyәti bütün millәtlәrlә, xüsusilә, qonşu olduğu millәtlәr vә dövlәtlәrlә mehriban münasibәtlәr yaratmaq әzmindәdir.
4. Azәrbaycan Xalq Cümhuriyyәti milliyyәtindәn, mәzhәbindәn, sinfindәn, silkindәn vә cinsindәn asılı olmayaraq öz sәrhәdlәri daxilindә yaşayan bütün vәtәndaşlarına siyasi hüquqlar vә vәtәndaşlıq hüququ tәmin edir.
5. Azәrbaycan Xalq Cümhuriyyәti öz әrazisi daxilindә yaşayan bütün millәtlәrin sәrbәst inkişafı üçün geniş imkanlar yaradır.
6. Müәssislәr Mәclisi toplanıncaya qәdәr Azәrbaycanın başında xalqın seçdiyi Milli Şura vә Milli Şura qarşısında mәsuliyyәt daşıyan Müvәqqәti hökumәt durur. [4, s.357;48]

# Proclamation
# de l'Indépendance de l'Azerbaïdjan

Le 28 mai 1918 à Tiflis, le Conseil National de l'Azerbaïdjan a publié le décret suivant sur l'indépendance de l'Azerbaïdjan:

Dans le cours de la grande révolution russe a été établie en Russie une organisation politique qui a amené la séparation de diverses parties de l'organisme de l'État et l'abandon de la Transcaucasie par les troupes russes.

Laissés à leurs propres forces, les peuples de la Transcaucasie ont pris en main leur propre sort et ont fondé la République Démocratique Fédérative de la Transcaucasie. Toutefois dans le cours des événements politiques, le peuple géorgien a cru préférable de se séparer de la République Fédérative de la Transcaucasie et de former une République Démocratique Géorgienne particulière.

La situation politique actuelle de l'Azerbaïdjan, liée avec la liquidation de la guerre entre la Russie et l'Empire Ottoman, et aussi l'anarchie inouïe dans l'intérieur du pays forment l'Azerbaïdjan, consistant dans la Transcaucasie orientale et méridionale, à reconnaître la nécessité de former un État à lui, pour faire sortir les peuples de l'Azerbaïdjan de la pénible situation intérieure et extérieure où ils se trouvent.

Considérant cela, le Conseil National de l'Azerbaïdjan, élu par le suffrage populaire, proclame au nom du peuple ce qui suit:

1. A partir d'aujourd'hui, les peuples de l'Azerbaïdjan jouissent des droits souverains & l'Azerbaïdjan, composé de la Transcaucasie orientale & méridionale, forme un état indépendant, jouissant de tous les droits d'un État.
2. La forme de l'organisation de l'Azerbaïdjan indépendant est la République Démocratique.
3. La République Démocratique de l'Azerbaïdjan s'efforcera d'établir des rapports de bon voisinage avec tous les États & particulièrement avec les peuples & États limitrophes.
4. La République Démocratique de l'Azerbaïdjan garantit sur son territoire les droits civils & politiques à tous les citoyens, sans distinction de nationalité, de religion, de position sociale et de sexe.
5. La République Démocratique de l'Azerbaïdjan accorde à toutes les nationalités peuplant son territoire toutes les facilités pour se développer librement.
6. Jusqu'à la Convocation de l'Assemblée Constituante, à la tête de l'administration de tout l'Azerbaïdjan se trouve le Conseil National, élu au suffrage universel et le Gouvernement Provisoire, responsable devant l'Assemblée Nationale.



آذربایجان جمهوریتنک اعلان استقلال بیاننامه‌سی

۲۸ مایس سنه ۱۹۱۸ ده تفلیس شهرنده آذربایجان ملی شوراسی آذربایجانک استقلالی حقنده ذیلده‌کی عقدی اعلان ایتدی:

بیوک روسیه انقلابی جریاننده روسیه دولتی ایله بر وضعیت سیاسیه حصوله گلمکله اونلک نتیجه‌سنده آیری آیری عنصرلر موجود دولتدن انقسام ایدوب روس اوردوسی ماورای قفقاسیی ترک ایتدی. کندی قوه‌لرینه عهده‌سنه بیراقلمش ماورای قافقاسیا ملتلری حیاتلرینک کندی اللرینه آلارق ماورای قافقاسیا قوشمه خلقلر جمهوریتی تأسیس ایتدیلر. فقط حادثات سیاسیه‌نک صوکره‌کی جریاننده گرجی ملتی ماورای قافقاسیا قوشمه خلقلر جمهوریتی هیئتندن آیرلارق گرجستان خلقلر جمهوریتی تشکیل ایتمه‌یی صلاح گوردی.

روسیه ایله عثمانلی ایمپراطورلغی بیننده ظهور ایتمش محاربه‌نک تسویه‌سیله مربوط اولان آذربایجانک حاضرکی وضعیت سیاسیه‌سی و مملکت داخلنده کی بی مثال آنارشی شرقی و جنوبی ماورای قافقاسیادن عبارت اولان آذربایجانک بر مخصوص دولتی تشکیلات یاپمق لزومنی و وجوبیله آذربایجان خلقنی و شیمدی اولدیغی آغیر داخلی و خارجی وضعیتدن چیقارمق امرانه سوق ایدیور و تلقین ایدیور.

بناء علیه آرای عمومیه ایله انتخاب اولنمش آذربایجان ملی شوراسی شیمدی عموماً اعلان ایدیورکه:

۱ بوگوندن اعتباراً آذربایجان خلقی حق حاکمیته مالکدر و شرقی و جنوبی ماورای قافقاسیادن عبارت آذربایجان کامل الحقوق مستقل بر دولتدر.

۲ مستقل آذربایجانک شکل اداره‌سی خلق جمهوریتی تعیین اولنیور.

۳ آذربایجان خلق جمهوریتی عموم ملتلر و بالخاصه همحدود ملت و دولتلرله دوستانه مناسبات حصوله گتیرمکه چالیشیر.

۴ آذربایجان خلق جمهوریتی کندی حدودی داخلنده بلافرق ملیت، دین، جنس و وضعیت اجتماعیه بوتون وطنداشلرینک ملکی و سیاسی حقوقنی تأمین ایدیور.

۵ آذربایجان خلق جمهوریتی کندی اراضیسنده یاشایان عموم ملتلره آزاده ترقی و انکشاف ایچون گنیش میدان ویره‌جکدر.

۶ مجلس مؤسسان دعوت اولنمه‌یه قدر آذربایجان اداره‌سی باشنده آرای عمومیه ایله منتخب ملی شورا و بو ملی شورایه قارشی مسئول موقتی حکومت دوریور.

*Azərbaycan Xalq Cümhuriyyətinin*
*İstiqlaliyyət Bəyannaməsinin nadir nüsxələri [42]*

Milli Şura ölkədə siyasi fəaliyyəti olan bütün partiyaları parlamentə daxil olmağa dəvət etmişdir. Bolşeviklərdən başqa digər partiyaların iştirak etdiyi ilk iclasda eserlər başda olmaqla, rus partiyalarının tələbi ilə "vahid və bölünməz Rusiya" məsələsi müzakirəyə qoyulmuşdur. Kadetlər, menşeviklər və digər rus partiyaları bölünməz Rusiya ideyasını müdafiə edir, Azərbaycanın müstəqilliyini tanımır və Milli Hökumətin yaradılmasına razılıq vermirdilər. Azərbaycanın milli partiyaları – Müsavat, Hümmət, milli islamçı partiyalardan olan İttihad, Əhrar və başqaları Azərbaycanın müstəqilliyini müdafiə edərək, Rusiya ilə yenidən birləşməyin qəbuledilməz olduğunu bildirirdilər. [2, s.285]

Azərbaycan Xalq Cümhuriyyətinin ictimai-siyasi həyatında fəal iştirak etmiş, parlamentdə ayrıca fraksiya ilə təmsil olunmuş siyasi hərəkatlardan biri də "Əhrar" partiyası olmuşdur. Müsavatın yaxın müttəfiqi kimi Əhrar millətçilik və din məsələlərində Müsavatla eyni ideyaları bölüşürdü.

Parlamentin 30 dekabr 1918-ci il tarixli altıncı iclasında Gürcüstan Parlamentinin təbriki, "Əhrar" fraksiyasının ərzi-halı, əfvi-ümumi layihəsi və başqa məsələlər müzakirə edilib. [34, s.133]

Parlamentin 8 yanvar 1919 tarixli iclasında sədrə yeni 2 katib müavininin seçilməsi məsələsi müzakirə olunmuşdur. Müsavat Partiyasının sədri Məhəmməd Əmin Rəsulzadə bu 2 müavindən birinin Əhrar fraksiyasından, digərinin isə Milli azlıqlar fraksiyasından seçilməsini təklif etmişdir. Milli azlıqlar fraksiyasından Moisey Quxman namizəd verməyəcəklərini elan etmişdir. Məhəmməd Əmin Rəsulzadə daha sonra namizədin Bitərəflər fraksiyasından olmasını təklif etmişdir. Bitərəflər fraksiyası da etiraz etdikdən sonra, Şəfi bəy Rüstəmbəyov Müsavat və bitərəflər fraksiyasının namizəd göstərəcəyini elan etmiş və bu qərara etiraz edən olmamışdır. Səsvermədə Əhrar fraksiyası adından Bayram Niyazi Kiçikxanlı, Müsavat və bitərəflər fraksiyası adından isə Mehdi bəy Hacınski seçilmişdir.

AXC dövründə vəziyyətin gərginləşməsi üçün aqrar məsələ katalizator rolunu oynamışdır. Əlbəttə ki, əsasən aqrar-kəndli

ölkəsi olan Azərbaycanda iqtisadi həyatın başlıca önəmli məsələsi yenə də torpaq məsələsi idi. Lakin hökumət bu məsələni yenə də nəzərdən keçirməyə tələsmirdi. Parlamentin iclasında çıxışında baş nazir F. Xoyski torpaq məsələsinin həllini Müəssislər Məclisinin çağırılmasınadək təxirə salmağı təklif edirdi. Lakin kəndlilərin son dərəcə ağır vəziyyəti hökuməti məcbur edirdi ki, bu məsələni parlamentin müzakirəsinə çıxartsın. Əhrar partiyası əsasən kəndlilərin mənafeyindən çıxış etdiyinə görə bu məslədə höküməti tənqid edirdi. 1919-cü il fevralın 4-də Azərbaycan parlamenti özünün 12-ci iclasında ilk dəfə olaraq aqrar məsələni nəzərdən keçirdi və menşevik-hümmətçi Səmədağa Ağamalıoğlunun sədrlik edəcəyi aqrar komissiyasını yaratdı. Qeyd etmək lazımdır ki, aqrar məsələnin qəti həllində hələ xeyli əvvəl mülkədar torpaq sahibliyinin toxunulmazlığı elan olunur və hökumət bu torpaqları kənar qəsblərdən tam müdafiə etməyə söz verirdi. [13; 47]

Azərbaycan Xalq Cümhuriyyətində Aqrar məsələ mahiyyətcə çox mürəkkəb, həlli çətin olan problem idi. 1919-cu ilin avqustunda nazir müavini X.Sultanovun rəhbərliyi ilə “Azərbaycan Cümhuriyyəti əhalisinin torpaq təminatı haqqında” və “Xüsusi sahibkar meşələrinin dövlətin mülkiyyətinə çevrilməsi haqqında” qanun layihələrinin hazırlanması başa çatdırıldı.

Qanun layihələrində əksini tapan əsas məsələlər xüsusi sahibkar torpaqlarının əhalinin hansı kateqoriyasından, nə qədər və hansı şərtlərlə alınıb dövlət torpaq fonduna keçirilməsi ilə bağlı idi. Burada xüsusi sahibkar torpaqlarının verəcəyi gəlir hesabına əvəz ödənilməklə, özgəninkiləşdirilməsi nəzərdə tutulurdu. Nazirlik belə hesab edirdi ki, xüsusi sahibkar torpaqlarını əvəzi ödənilmədən müsadirə etmək xüsusi mülkiyyəti ləğv etməyə bərabərdir. Buna görə də Qanun layihəsində torpağın əkinçi əhaliyə yalnız istehlak norması üzrə xüsusi mülkiyyətə verilməsi məqbul sayılır. Eyni zamanda torpaq sahibinin özünə saxladığı sahənin ölçüsü kənd yerlərində suvarılan torpaq sahəsi 100 desyatindən, şəhər yerlərində isə 5-7 desyatindən artıq olmamalı,

həyətyanı torpaq sahələri bu normalara daxil edilməməli idi. Lakin Əkinçilik Nazirliyinin hazırladığı bu qanun layihələri də parlament komissiyasının hazırladığı layihə kimi uğursuz oldu. [9]

Aqrar məsələdə hakim "Müsavat" partiyasının özünün də aydın proqramı yox idi. Hələ "Müsavat" partiyasının 2-ci qurultayında (1919-cu il, dekabr) partiyanın rəhbərliyi həmin məsələ ilə bağlı kəskin tənqid edildiyi vaxt Məhəmməd Əmin Rəsulzadə demişdir ki, bu məsələdə tələskənlik, eləcə də onu həddən ziyadə uzatmaq eyni dərəcədə mənfi nəticələrə gətirib çıxara bilər. "Müsavat" fraksiyası 1920 il fevralın 16-da partiyanın aqrar məsələ barədə qurultayda bəyənilmiş qanun layihəsini Parlamentin növbəti 123-cü iclasında müzakirəyə təqdim etdi. Bu qanun layihəsi də xüsusi sahibkar torpaqlarının əvəzsiz olaraq alınıb dövlət torpaq fonduna verilməsini nəzərdə tuturdu. Lakin bu layihədə kənd yerlərində sahibkarların mülkiyyətində, bağ və həyətlər də daxil olmaqla, 25-75 desyatin, şəhər yerlərində 5 desyatindən 7,5 desyatinədək torpaq saxlanılması nəzərdə tutulurdu. [13; 47]

1919 il aprelin 14-də "Əhrar" fraksiyasından R. Qaplanov maarif və dini etiqad naziri, A.Qardaşov isə əkinçilik naziri kimi Nəsib bəy Yusifbəylinin başçılıq etdiyi 4-cü hökumət kabinəsinə daxil oldular. Aqrar islahatların keçirilməsinin ləngidilməsinə görə Hökuməti tənqid edən sosialistlərə "Əhrar" fraksiyası da qoşulmuşdu. N.Yusifbəylinin 5-ci koalisyon kabinəsində R.Qaplanov ticarət, sənaye və ərzaq naziri təyin olundu.

1919-cu ilin ikinci yarısında əkinçilik naziri, "Əhrar" partiyasının nümayəndəsi Aslan bəy Qardaşovun hazırladığı aqrar layihə nəzərdə tuturdu ki, dövlət torpaq fondu yaradılsın və bütün torpaq onun nəzarəti altında olsun. Başqa sözlə desək, bütün torpaqlar dövlətin ixtiyarına keçsin. "Əhrar" iri mülkədar torpaqlarının özgəninkiləşdirilərək kəndlilər arasında bölünməsini düzgün sayırdı. Mübahisə doğuran əsas məsələ ondan ibarət idi ki, sahibkarların əlindən torpaq alınandan sonra onlara pul, kompensasiya ödənilsin, ya yox. Bu problemin aradan qaldırılmamağı, onunla bağlı çox kəskin, qızğın siyasi mübahisələr nəticəsində

aqrar məsələnin həllini reallaşdırmaq mümkün olmadı. "Əhrar" Partiyasının bəyannaməsi 1919-cu il dekabrın 26-da keçirilmiş parlament iclasında Abdulla bəy Əfəndizadə tərəfindən açıqlandı. Əhrarçılar sosializmin və liberalizmin ideyalarını öz proqramında birləşdirməyə çalışırdılar. Fəhlə məsələsində bu partiya 8 saatlıq iş günü, əməyin mühafizəsi tələblərinə tərəfdar çıxırdı [44].

Xarici siyasət sahəsində qonşu respublikalarla dostluq münasibətlərinin qurulması və inkişaf etdirilməsinə üstünlük verən "Əhrar" sülh konfransında təkcə Azərbaycan xalqının yox, bütün Qafqaz xalqlarının müstəqilliyinin və onların hüquqlarının müdafiə edilməsinin vacibliyinə xüsusi diqqət yetirirdi. Azərbaycan Cümhuriyyətinin qurulmasını alqışladığını bildirən "Əhrar" eyni zamanda hökuməti yarımillik fəaliyyətinin kifayət qədər qənaətbəxş olmadığına görə tənqid etmişdi. Onun bəyannaməsində hər bir nazirliyin başında müvafiq sahənin mütəxəssisinin durması tələb olunurdu. [2, s.291; 4, s.357; 23, s.994-95]

"Əhrar" fraksiyası tərəfindən yollar nazirinə ünvanlanmış və 1919-cu ildə Məclisi-Məbusanın müzakirəsinə çıxarılmış Şəki-Zaqatala ətrafındakı yolların vəziyyətinə dair və 26 aprel 1920-cil tarixdə parlamentin 144-cü iclasında müzakirəyə çıxarılmış Şəki şəhərini sel təhlükəsindən qorumaq məqsədilə Kiş çayının qarşısına daşdan bənd qurulması üçün 40.460.000 manat vəsait buraxılmasını nəzərdə tutan qərarların qəbulu məhz bu fəaliyyətin nəticəsi idi. Sözügedən sonuncu qanun layihəsi ilk dəfə Məclisi-Məbusanın 1920-ci ilin mart ayının 4-də keçirilən yüz otuzuncu iclasının gündəliyinə daxil edilmişdi. Haqqında söhbət açdığımız birinci məsələ ilə bağlı məclisdə ayrı-ayrılıqda çıxış edən Abdulla bəy Əfəndiyev və Kiçikxanov çıxışlarında hər bir dövlət üçün yol infrastrukturunun iqtisadiyyatın inkişafı baxımından mühüm əhəmiyyət kəsb etdiyini vurğulayırlar. İstehsal olunan əmtəələrin həcminə görə "Azərbaycanın ikinci Bakısı hesab edilən" Şəki-Zaqatala bölgəsinin yollarının olduqca pis durumda olmasını qeyd edən natiqlər, yolların bu vəziyyətdə olmasının kəndlilərə böyük ziyan bahasına başa gəldiyini, milyonlarla

pud meyvənin yolsuzluqdan xarab olduğunu bildirir, məsələdən çıxış yolu kimi Zaqataladan Gəncəyədək uzanan yolun təmir edilməsinin həmin əmtəələrin bazara çıxarmaq üçün şərait yarada biləcəyini vurğulamaqla, sözügedən yolun təmirinin xəzinəyə yük olmayacağını, bu planı reallaşdırmaq üçün maliyyə mənbəyi kimi Gürcüstana göndərilən meyvələrin müqabilində alınan 200 min manat məbləğindəki vəsaitdən istifadə edilməsinin mümkünlüyünü ifadə edirlər. [12]

Məktəb şəbəkəsinin bərpa edilməsi məqsədilə hökumət onun maddi-texniki bazasının möhkəmləndirilməsi, məktəb binalarının təmiri, bərpası və yeni məktəblərin tikintisi üçün vəsait ayrılması üzrə tədbirlər görürdü. Nazirliyin göstərişi ilə müxtəlif qəzalarda məktəblərin bərpa edilməsinin smetaları hazırlanıb təqdim olunurdu. Zaqatalada, Göyçay və Şuşa qəzalarında, başqa yerlərdə yeni məktəblər açılırdı. Nəticədə köhnə məktəblərin xeyli hissəsinin bərpasına, bir sıra yeni məktəblər açılmasına və nəzərdə tutulmuş layihələrin qismən yerinə yetirilməsinə nail olundu. Məsələn, əgər 1918-ci ildə Şamaxı və Göyçay qəzaları xalq məktəbləri müfəttişliyində uçotda olan 108 məktəbdən ancaq 10-u fəaliyyət göstərirdisə, 1919-1920-ci tədris ilində onların sayı 70-ə çatdırıldı. [2, s.395; 66,s.432]

Göyçay qəzasında təhsilin inkişafında digər şəxslərlə yanaşı parlamentə Göyçay qəzasından seçilmiş deputat Hacı Hüseyn Hacı Abdulla oğlu Əfəndiyevin də böyük rolu olmuşdur.

Aprel işğalı ərəfəsində İttihad, Əhrar və Sosialistlər birləşərək hökumətə etimadsızlıq göstərdilər. Əhrarın bəyanatında deyilirdi ki, hökumətin əksəriyyəti radikal (yəni, sosialist yönümlü) addımlar atmaq istəmədiyindən, vəziyyəti daha da gərginləşdirirlər.

1920-ci il aprelin 15-də Aslan bəy Qardaşov Əhrar nümayəndələrinin koalisyon hökumətdən çıxması barədə bəyanat verdi. Bundan sonra Əhrar və İttihad fraksiyaları Məmmədhəsən Hacınskinin baş nazir vəzifəsinə təyin olunmasına və bolşeviklərlə birgə yeni hökumət formalaşdırılmasına razılıq versələr də,

artıq gec idi. Bolşeviklər heç bir koalisiyaya razı olmadılar və hakimiyyətin təhvil verilməsi barədə parlamentə ultimatum göndərdilər. Gərgin mübahisələrlə qarşılanan bu sənədin müzakirəsində Müsavatdan başqa, bütün partiya liderləri ilə birgə Aslan bəy Qardaşov da ultimatumun qəbul edilməsinə və hakimiyyətin bolşeviklərə təhvil verilməsinə səs verdi. XI Qırmızı Ordu aprelin 28-də Bakıya daxil olduqdan sonra parlament və bütün siyasi partiyalar buraxıldı. Bununla Əhrar partiyasının da fəaliyyətinə son qoyuldu.[4, s.356; 26]

Çox təəssüf ki, Azərbaycanda əsasən kəndlilərin mənafeyini müdafiə edən "Əhrar" partiyası bolşeviklərin Rusiyada hakimiyyətə gələrkən özünə müttəfiq hesab etdiyi kəndli partiyası olan eserlərə qarşı cinayətləri nəzərə almamış, müəyyən qədər bolşeviklərin 1920-ci ilin aprel ayında irəli sürdüklər saxta şüarların təsiri altına düşmüşlər. Azərbaycan Xalq Cümhuriyyətinin sonuna yaxın "Əhrar" partiyasının mövqeyi onların Rusiyada eser partiyası kimi bolşeviklərin irəli sürdükləri saxta şüarlara aldanması idi. Hər iki partiya kəndlilərin mənafeyini müdafiə etdiklərindən sonradan repressiyalara və terrora məruz qalmışlar. "Əhrar" partiyasının Rusiyada bolşeviklərin eserlərə qarşı törətdikləri cinayətləri nəzərə almamağı onların sonrakı faciələrinə səbəb olmuşdu.

Erməni-daşnak qüvvələri bütün Qarabağı ələ keçirməyə cəhd göstərməklə, həm də Azərbaycanın şimal sərhədlərinin müdafiəsinin tamamilə zəiflədilməsinə və bununla da bolşevik işğalının asanlaşmasına əlverişli şərait yaratmalı idi. Erməni qüvvələri Novruz bayramı günlərində, 1920-ci il martın 22-də gecə saat 3-də eyni vaxtda Şuşa, Xankəndi, Əsgəran, Xocalı və Tərtərdə yerləşən qoşun bölmələrinin üzərinə hücuma başlasalar da, hərbi təşəbbüsü ələ ala bilmədilər. Birinci piyada diviziyasının komandiri general-mayor Cavad bəy Şıxlinski erməni silahlı dəstələrinin Əsgəran qalası üzərinə hücumu başlanandan sonra Nazirlər Şurasının sədri Nəsib bəy Yusifbəyliyə göndərdiyi teleqramında yazırdı: "Əsgərlər qalanın bir hissəsini hələ də əllərində saxlayırlar... ya başımızı verəcəyik, ya da Əsgəranı qoruyacağıq". Qarabağ

müharibəsi Azərbaycan ordusunun və onun rəhbərliyinin müstəqillik dövründə rastlaşdıqları ən ağır və həm də ən şərəfli sınaq idi. Qısa müddətdə Azərbaycanın bütün müdafiə qüvvələri səfərbərliyə alındı. Vətənini və yurdunu sevən Azərbaycan oğulları ölkənin ərazi bütövlüyünün təmin edilməsi üçün əsl qəhrəmanlıq nümunələri göstərirdilər. [4, s.56-57; 10]

Qarabağda erməni qiyamının yatırılmasında H.H.Əfəndiyevin də fəal iştirak etməsi haqqında məlumatlar var. O, Göyçaydan təşkil etdiyi könüllülərlə birlikdə ermənilərə qarşı döyüşlərdə qəhrəmanlıqlar göstərmişdir.

Rusiyada 1917-ci ilin oktyabr çevrilişi ilə hakimiyyətə gəlmiş bolşeviklər ilk əvvəl eser partiyası (SR – Sosial Revolyusioner) ilə koalisiya yaratmış, az sonra öz müttəfiqləri olan eserlərə qarşı 1918-ci ilin avqust ayında “qırmızı terror” həyata keçirmişlər. Onlar hətta Bakı kommunasının komissarı olmuş Mirhəsən Vəzirovun 1918-ci ilin 20 sentyabrında güllələnməsinə baxmayaraq, eser partiyasının üzvü olduğuna görə düşmən münasibət bəsləmişlər. Buna görə də sovet hakimiyyəti illərində M.Vəzirovun adı kölgədə qalmış, onun rəhbərlik etdiyi torpaq komissarlığında işləyən Bakı kəndləri ilə iş aparan, komissar olmayan M.Əzizbəyov bolşevik olduğuna görə daim komissar kimi təbliğ olunmuşdur. [36;37]

1920-ci il martın əvvəllərində Əkinçilik Nazirliyi “Xüsusi sahibkar torpaqlarının dövlət torpaq fonduna keçirilməsi və Azərbaycan Xalq Cümhuriyyəti əhalisinin torpaqla təmin olunması haqqında qanun"un yeni layihəsi üzərində işi başa çatdırdı və baxılmaq üçün Nazirlər Şurasına təqdim etdi. Bu layihə kənd yerlərində olan xüsusi sahibkarların – hüquqi şəxslərin bütün torpaqlarının, o cümlədən monastır, vəqf, məscid və kilsə torpaqlarının, habelə şəhər ərazisinin şəhər mülkiyyətinə daxil olmayan sahələrinin sahiblərindən alınıb əvəzi ödənilmədən dövlət torpaq fonduna verilməsini nəzərdə tuturdu. Mülkiyyəti əlindən alınan sahibkarların ixtiyarında saxlanan torpaq sahəsinin ölçüsü həmin yerlərin təsərrüfat şəraitinə uyğun olaraq, kənd yerlərində becə-

rilən bitki təsərrüfatları üçün 7-10 desyatin, taxılçılıq təsərrüfatı üçün 15-20 desyatin, maldarlıq təsərrüfatları üçün 40-50 desyatin, şəhərdə isə müvafiq olaraq 1,5-3 desyatin, 3-5 desyatin, 10-12 desyatin müəyyən edilirdi. Sahibkarların mülk və bağları da bura daxil idi.

"Müsavat" fraksiyası yalnız 1920-ci il fevralın 16-da partiyanın aqrar məsələ barədə qurultayda bəyənilmiş qanun layihəsini Parlamentin növbəti 123-cü iclasında müzakirəyə təqdim etdi. Bu qanun layihəsi də xüsusi sahibkar torpaqlarının əvəzsiz olaraq alınıb dövlət torpaq fonduna verilməsini nəzərdə tuturdu. Lakin bu layihədə kənd yerlərində sahibkarların mülkiyyətində, bağ və həyətlər də daxil olmaqla, 25-75 desyatin torpaq saxlanılması, şəhər yerlərində isə bu sahənin becərilən bitkilərin xüsusiyyətindən və eləcə də əhalinin torpağa olan ehtiyacından asılı olaraq, 5 desyatindən 7,5 desyatinədək məhdudlaşdırılması nəzərdə tutulurdu.

Parlament sonuncu Qanun layihəsinə baxıb, müzakirəyə təqdim etmək üçün aqrar komissiyaya 10 gün möhlət verdi. Lakin aqrar qanun layihələrindən heç biri qanun statusu almadı. Lakin 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin aqrar siyasətinin əsas məzmunu əkinçiliklə məşğul olan əhali kütləsinin maddi və sosial vəziyyətinin yaxşılaşdırılması idi. Həmçinin torpaq icarəsi münasibətləri tənzimlənib. Proqramların reallaşması üçün komissiyaların yaradılması və s. kimi sistemli tədbirlər də görülüb. [13]

Ölkədə iqtisadiyyatın inkişafı üçün bir sıra tədbirlərin həyata keçirilməsi, o cümlədən aqrar iqtisadiyyatla bağlı yeni layihələrin hazırlanması müstəqil dövlətin iqtisadi modelini yaratmağa yönəlmişdi.

1920-ci ilin aprel işğalı ərəfəsində bir neçə partiya – "İttihad", sosialistlər və "Əhrar" birləşərək Hökumətə etimadsızlıq göstərdilər. "Əhrar"ın bəyanatında deyilirdi ki, Hökumətin əksəriyyəti radikal (yəni, sosialist yönümlü) addımlar atmaq istəmədiyindən, vəziyyəti daha da gərginləşdirirlər.

XI ordu hissələrinin Biləcəri stansiyasında dayandığına arxalanaraq aprelin 27-də gündüz saat 16-da Azərbaycan bolşevikləri RK(b)P Qafqaz Diyar Komitəsinin Bakı bürosu və Fəhlə Konfransı adından parlamentə hakimiyyəti təhvil vermək haqqında ultimatum təqdim etdilər. Ultimatumla bağlı parlament müzakirələri başladı. Müsavat fraksiyası adından onun sədri M.Ə.Rəsulzadə çıxış edərək dedi: "Bizə kobud ultimatum verilmişdir. Bizim xilaskarımız hörmət etdiyimiz Türkiyədir. Biz öz müstəqilliyimizin tapdalanmamağı şərti ilə Türkiyəyə köməyə gedən qüvvələri müdafiə edirik. Lakin, cənablar, bizim razılığımızı soruşmadan sərhədlərimizi keçən qüvvələr bizə dost deyil, düşməndir! Bu ultimatumun qəbul edilməsi hakimiyyəti dost maskası geymiş düşmənə vermək deməkdir! Biz buraya millətin iradəsi və arzusu ilə gəlmişik və bizi buradan yalnız güc və süngü ilə çıxarmaq olar". [19]

Gərgin mübahisələrlə qarşılanan bu sənədin müzakirəsində "Müsavat"dan başqa, bütün partiya liderləri ilə birgə "Əhrar" partiyasının sədri A.Qardaşov da ultimatumun qəbul edilməsinə və hakimiyyətin bolşeviklərə təhvil verilməsinə səs verdi. Onların bu cür səhv qərar verməsində həmin dövrdə sovet Rusiyası ilə Türkiyənin yaxınlaşmasının yaratdığı çaşqınlıq da müəyyən rol oynamışdı.

Azərbaycan parlamenti aşağıdakı şərtlərlə hakimiyyətin Azərbaycan kommunistlərinə verilməsi barədə qərar qəbul etdi:

1. Rus ordusu Bakıya daxil olmadan dəmir yolu ilə birbaşa Anadolunun köməyinə gedəcək;
2. Azərbaycan istiqlalı və ərazi bütövlüyü hər cür təcavüz və ilhaqdan qorunacaq;
3. Azərbaycan ordusu olduğu kimi saxlanacaq;
4. Azərbaycanın siyasi partiyaları üçün fəaliyyət azadlığı təmin olunacaq;
5. Keçmiş dövlət xadimləri, hökumət üzvləri və millət vəkilləri təqib olunmayacaq, dövlət idarələri qulluqçularının iş yerləri saxlanacaq, yalnız rəhbər vəzifəli şəxslər dəyişdiriləcək;

6. Azad şəraitdə toplaşacaq Azərbaycan Şuraları hakimiyyətin idarəçilik formalarını təyin edəcək. [43]

İşğalçı XI Qırmızı ordu Bakıya daxil olduqdan sonra Parlament və bütün siyasi partiyalar buraxıldı. Bununla da digər siyasi partiyalar kimi "Əhrar" partiyasının da fəaliyyətinə son qoyuldu.

Sovet Rusiyası beynəlxalq hüququn bütün norma və prinsiplərini pozaraq, Versal konfransında de fakto tanınmış Azərbaycan Xalq Cümhuriyyətini 27 aprel 1920-ci ildə işğal etdi. İşğaldan dərhal sonra təqiblər, Azərbaycan Xalq Cümhuriyyəti liderlərinin, görkəmli nümayəndələrinin, digər partiyaların, siyasi qrupların və cərəyanların rəhbərlərinin, Azərbaycan ordusunun, müdafiə nazirliyinin xadimlərinin həbsləri baş verdi. Onların bir çoxu Nargin adasında güllələndi, Rusiyanın müxtəlif həbs düşərgələrinə sürgün edildi. Bütün bunlar millətçi rus şovinistlərinin və erməni daşnaklarının başçılıq etdikləri XI ordunun xüsusi şöbəsi tərəfindən özbaşınalıqla edilirdi. Daşnak terrorçuları 1920-1921-ci illərdə F.Xoyskini və H.Ağayevi Tiflisdə; Behbud ağa Cavanşiri isə Malta adasında vəhşicəsinə qətlə yetirdilər. General Süleyman Sulkeviç, hökumət üzvləri X.Rəfibəyov, İ.Ziyadxanov, tanınmış pedaqoq və alim F.Köçərli, professor Zimin və başqaları aradan götürüldü. Bir fərziyyəyə görə, Usubbəyov Azərbaycanın Gürcüstanla sərhədini keçərkən qarətçi quldurlar tərəfindən öldürülmüşdü. [3, s.11]

Azərbaycanda ilk həbslər nəticəsində 1308 nəfər saxlanılıb, onlardan 461 nəfəri gizli polisin dindirilməsinə, 2 nəfəri müharibəyə, 10 nəfəri edama, 122 nəfəri cəza düşərgələrinə, 240 nəfəri digər bölmə xidmətlərinə göndərilib. [62, s.176]

Heç bir hüquqi əsas olmadan, 27 aprel 1920-ci il tarixdə de fakto dünya dövlətləri tərəfindən tanınan Azərbaycan Xalq Cümhuriyyətini işğal etmiş sovet Rusiyasının təcavüzkar siyasəti haqqında akademik Ziya Bünyadov yazırdı: "Qəribədir: Azərbaycan Respublikasının parlamentindən 1920-ci il aprel ayının 28-nə keçən gecə hakimiyyəti səssiz-səmirsiz, demək olar ki, müftə əlinə keçirən bolşeviklər siyasi rəqiblərinə demirəm, adi azərbay-

canlı fəhlə və kəndlilərinə insancasına münasibət göstərsəydilər, əlbəttə xalqımızın hörmətini də qazanardılar. Lakin hakimiyyəti əlinə alan kimi bolşeviklər bandit Dzerjinskinin qırmızı terror bayrağını qaldıraraq soyğunçuluq, qarət və xalqı qəsdən məhv etməklə məşğul oldular. Neft mədənlərində işləyən minlərcə azərbaycanlı fəhlələri casusluq adı ilə kimini sürgün edir, kimini də İrana qovur, əvəzində Serebrovski kimilər, Krımdan qovulmuş Vrangel ordusunda xidmət edən zabit və əsgərlər Bakıya gətirilirdi. Yazıq kəndlilərimiz isə son illərə qədər pasportsuz sübhdən gecənin zülmətinə qədər qan-tər tökərək əvəzində demək olar ki, heç bir şey qazanmırdı... hər hansı bir etiraz da əlüstü damğalanırdı: əksinqilabçı, antisovet, antikolxoz, antipartiya və min cür başqa "anti"lər adı ilə yüzlərcə və minlərcə kəndli zəhmətkeş güllələnir və ya sürgün edilirdi". [14, s.31-32]

Sovet tarixşünaslığının verdiyi məlumata görə, Azərbaycan İnqilab komitəsi İşğaldan dərhal sonra, yəni təkcə 1920-ci ilin mayında Sovet Rusiyasına 15 milyon pud, 39 iyununda isə 21,2 milyon pud neft və neft məhsulları, dekabrda isə Ermənistana 48 sistern kerosin, 50 vaqon taxıl və başqa məhsullar göndərmişdir. [1, s.264, 275]

XI ordunun işğalı ilə qurulmuş sovet hakimiyyətinin Azərbaycan xalqına qarşı cinayətləri bolşevik rəhbərlərin müxtəlif çıxışlarında, hesabatlarında da öz əksinin tapıb. Məsələn, Xalq Təsərrüfatı Şurasının sədri N.Solovyovun Leninə göndərdiyi "Çevrilişdən sonrakı 3 ay müddətində bizim Azərbaycanda siyasətimiz" adlı hesabatında yazırdı ki, çevrilişə qədər hətta azərbaycanlı ziyalılar içərisində də sovet hakimiyyətinə rəğbət bəsləyənlər var idi. Məlumdur ki, Azərbaycan hökuməti azərbaycanlılardan təşkil edilmişdir. Heç kimə sirr deyildir ki, Azərbaycan hökumətinin üzərində də bir hakimiyyət mövcuddur. O, Azərbaycan KP-nin hakimiyyətidir. Partiya rəhbərliyi isə əsasən erməni və gürcülərin əlindədir. Bunlar isə sanki Azərbaycanı başsız qoymaq fikrinə düşmüşlər. Ziyalılar soldan-sağa, sağdan-sola güllələnir. Küçələrdən kütləvi surətdə həbs edilən müsəlmanlara qarşı er-

mənilərin istehzalı gülüşləri müsavatçıların əvvəlcədən söylədikləri belə bir fikri təsdiqləyir ki, Azərbaycanda sovet hakimiyyətinin qurulması ümummilli fəlakətdir. [37, s.22,23]

Bolşevik idelogiyasına inanaraq faciələrlə üzləşən siyasətçilərdən biri də Nəriman Nərimanov olmuşdur. O, ömrünün sonuna yaxın "Müstəqil Sovet Azərbaycanı" şüarının saxta olduğunu başa düşərək V.İ.Leninə məktubunda yazırdı: "Məgər "Müstəqil Azərbaycan" sizin dilinizdən çıxmamışdırmı? ... İndi vəziyyət belə bir şəkil alır: həmişə Denikini müdafiə etmiş Ermənistan müstəqillik qazanmış və üstəlik də Azərbaycanın ərazilərini almışdır... Üç respublikadan birinci olaraq Sovet Rusiyasının qoynuna atılmış Azərbaycan isə həm ərazisini, həm də müstəqilliyini itirir." [20, s.62]

# SOVET RUSİYASININ 27 APREL 1920-ci İL İŞĞALINDAN SONRA H.H.ƏFƏNDİYEVƏ QARŞI TƏZYİQLƏR VƏ REPRESSİYA ARXİV SƏNƏDLƏRİNDƏ

"Əhrar" partiyasının üzvləri, o cümlədən millət vəkili Hacı Hüseyn Əfəndiyevin 1920-ci il aprelin 15-dən sonra bolşeviklərə münasibətinin dəyişməsinin səbəbi onların verdiyi yalan vədlərə inanmaları idi. Bu da onların sonrakı faciəsinin əsasını qoydu.

Bolşeviklərin verdiyi vədlərə inanan "Əhrar" partiyasının üzvləri işğaldan sonra heç hara getməyərək vətəndə qaldılar. Lakin çox keçmədi ki, onlar bolşeviklərin əsl simasını gördülər. Onların mütləq əksəriyyəti repressiyalara məruz qalaraq güllələndi.

"Əhrar" partiyası üzvləri ilə yanaşı parlamentdə bu partiyanın müttəfiqi olmuş "İttihad" partiyasının 155 nəfər üzvünün həbsi ilə bağlı faktların təhlili 1920-ci illərin əvvəllərində baş vermiş repressiyaların mahiyyətini başa düşməyə imkan verir. Həmin şəxslərlə bağlı qaldırılmış cinayət işində qeyd olunur ki, "İttihad" partiyası 1920-ci ilin aprelində qırmızı qoşunların Azərbaycana gəlməsi ilə bağlı fəaliyyətini dayandırıb. Bunun səbəbi guya onların sovet hakimiyyəti ilə elə bir prinsipial fikir ayrılığının olmaması idi. Partiyanın buraxılması haqqındakı aktda qeyd olunurdu ki, burjua "azadlığı" çərçivəsində Müsavatla açıq mübarizə aparan "İttihad" hesab edir ki, Qırmızı Sovet hissələrinin Azərbaycana gəlməsi müsavatçılarla mübarizədə müsbət rol oynayıb. Buna görə də öz məqsədinə çatmış "İttihad" tarix səhnəsindən gedir. Lakin az sonra "Əhrar" partiyası kimi "İttihad" partiyası da bolşevizmə münasibətdə səhvə yol verdiyini anlayaraq sovet rejiminə qarşı gizli mübarizəyə başlayıb.

1920-ci ilin iyul ayında nə vaxtsa vahid olmuş “İttihad” üç müstəqil qrupa, “Vətən və ya ölüm”, “Mərkəzi İttihad”, “Quranın əmin-amanlığı” qruplarına bölünür. Lakin onlar Qarabəyovun rəhbərliyi altında “Məhv olsun sovet hakimiyyəti!”, “Bolşevizmə ölüm!”, “Başda milli hökumət olmaqla Şərqdə müsəlmanlığa eşq olsun!” şüarları ilə birlikdə sovet hakimiyyətinə qarşı mübarizə aparıblar. [14,s.8-9]

1921-ci il yanvarın 25-də XI ordunun xüsusi şöbəsinin 3 nəfərdən ibarət komissiyasının qərarı ilə Qarabəy Qarabəyov, Cəmil Ləmbəranski, Məmməd Həsənov başda olmaqla 155 nəfər partiya üzvü müxtəlif müddətə azadlıqdan məhrum edilərək Rusiyanın Xolmoqor, Ryazan, Nijni-Novqorod həbs düşərgələrinə göndərilib. [14,s.18-20]

Aprel işğlından sonra Azərbaycanda 1920-ci ilin aprelindən 1921-ci ilin avqustuna kimi 48 min adam qırmızı terrorun qurbanı olmuşdur ki, bunların da böyük bir hissəsi ziyalıların payına düşür.” [36, s.56; 37, s.35; 40, 6 aprel 1991]

Sovet rejimi milli ordunun 266 hərbçisini, o cümlədən 12 general, 27 polkovnik, 6 podpolkovnik, 48 kapitanı güllələmişdi. [36, s.50]

Repressiyaya məruz qalan “Əhrar” partiyasının üzvlərindən biri də, Göyçayı Azərbaycan Xalq Cümhuriyyəti parlamentində təmsil edən, millət vəkili Hacı Hüseyn Hacı Abdulla oğlu Əfəndiyev idi. O, işğaldan dərhal sonra həbs olunaraq XI ordunun 7 saylı xüsusi şöbəsinin müstəntiqi Libermanın qısa müddətli istintaqından sonra elə bir ciddi faktlar olmamasına baxmayaraq güllələnmə cəzasına məhkum edilib. Bundan başqa onun əmlakı da müsadirə olunub.

Ona qarşı olan ittihamlara qısa müddətə Türkiyəyə qohumlarının yanına getməsi, Göyçay şəhərinin mərkəzində “İqbal” adlı kitab və dəftərxana ləvazimatı mağazası, bir neçə şərikli mülklərinin olması kimi absurd ittihamlar var idi. Buna görə vətəndaşa qarşı nəinki güllələnmə hökmü çıxartmaq, hətta həbs etmək ciddi qanun pozuntusudur. Bütün bunlar sübut edir ki, bolşeviklər

Azərbaycan ziyalılarının, o cümlədən Azərbaycan Xalq Cümhuriyyətinin deputatlarının xalq arasında nüfuzundan qorxaraq onları kütləvi şəkildə məhv etmək siyasəti yeritmişdi.

Tarixi mənbələrdə 1922-ci ildə Göyçayda sovet hakimiyyəti tərəfindən müsadirə olunan 20 yaşayış evinin, 10 karvansaranın, 61 şərikli mülk sahiblərinin siyahısında Hacı Hüseyn Hacı Abdulla oğlu Əfəndiyevin oğlu Tofiq Hacı Hüseyn oğlu Əfəndiyevin də adı 2 yerdə, müsadirə olunan yaşayış evi və şərikli mülklər siyahısında çəkilir:

***Yaşayış evləri:***

1. Həmid və Hacı İslam Hacı Məmməd oğulları (xəstəxanaya verilib).
2. Naslednikov Mustafa bəy (Rüstəmbəyov).
3. Hacı Mir Tacəddin Mir Həşimov (hərbi komissarlıq və fəhlə ittifaqına verilib).
4. Məmməd-İsmayıl bəy Səlimbəyov.
5. Hacı Mir Zeynal Məstanzadə.
6. Məmməd bəy və Rəhim bəy Ağabəyovlar (komxoza verilib).
7. Hacı Məmməd Həsənov və Mirzə Məmmədov (poçta verilib).
8. Ağəli, Əbülfəz və Əbülqasım Əsgərovlar.
9. Hacı Əliqulu Zeynalov (milis idarəsinə verilib).
10. Abdul-Əhəd Musayev (türməyə verilib).
11. Səlim Hacı Cəfər oğlu Kərimov.
12. Xəlil Xəlilov (inspektor dəftərxanası).
13. Zari xanım Qocayev (fəhlə klubu).
14. Umud bəy Dəmir bəy oğlu Mirabov (yataqxana).
15. Aleksandr Kuzmiç Uedinov (aqrar məntəqənin bağı).
16. Naslednikov Arşaka Minaeviça Belubekova (Qrenajnaya stansiya).
17. **Tofiq Hacı Hüseyn oğlu Əfəndiyev**.
18. Hacı Mirtağı Mirhəşimov (elektrik stansiyası).
19. Əliməmməd Əliyev.

20. Həzrət bəy və Rəhim bəy Ağabəyovlar (uşaq evinə verilib).

***Karvansaralar:***

1. Heydər Kərimov.
2. Kərbəlayi Səftər Hacı Hüseyn oğlu.
3. Hacı Zeynal və Hacı Məcid İsmayılovlar.
4. Ağaisa, Firudin və Ağamusa Ağayevlər.
5. Həzrət bəy və Rəhim bəy Ağabəyovlar.
6. Eynulla və Məcid Əliyevlər.
7. Məşədi Məmmədağa Zeynalov.
8. Ağakərim Kərimov və və Əbülfəz Əsgərov.
9. Seyid Hüseynov və Mir Səmədov.
10. Əlisgəndər Sultanov.

***Hamam: Ağabəyovlar.***

***Şərikli mülklər:***

1. Mir Hüseyn Mir Səmədov.
2. Məşədi Əbülfəz Əsgərov.
3. Ağakərim Kərimov.
4. Məşədi Məmmədağa Zeynalov.
5. Məşədi Yusif Kərimov.
6. Mixail Baqdanoviç Nazarov
7. Əliheydər Musayev.
8. Məşədi Əli və Həsən Həsən oğlu.
9. Heydər Kərimov.
10. Hacı Əsəd Hacı Kərim oğlu.
11. Məşədi Mehti İsmailov.
12. Ağabəyovlar.
13. Əlibaba Sədi oğlu.
14. Rəsul bəy Sultanov.
15. **Tofiq Hacı Hüseyn oğlu Əfəndiyev.**
16. Hacı Mahmud Əfəndiyev.
17. Kərim Mikailzadə.
18. Məşədi Həşim Cəbrailov.

19. Rza bəy Mirabov və Cəfər bəy Cəbrailov.
20. Nəsrəddin Kərimov.
21. Sədrəddin Süleymanov.
22. Hacı Həmid Həmzə oğlu.
23. Seriy Terkasparov.
24. Kazandar Babalı oğlu.
25. Cəlil Cahangir oğlu və Məmməd Hacı Qubad oğlu
26. Hacı Ömər bəy İbrahimbəyov.
27. Cəfər bəy Cəfəralıbəyov.
28. Ağamusa Hacı Məmməd oğlu.
29. Hacı Zeynal İsmayılov.
30. İsmayıl Novruz oğlu.
31. Veysəl Hacı İslam oğlu və Həmid Həmid oğlu
32. Hacı Baba Abdullayev.
33. Qəzənfər Yusif Oğlu.
34. Cəfər bəy Cəfəralıbəyov və Rza bəy Mirabov.
35. Məmməd İsmail bəy Səlimbəyov.
36. Abduləsəd Musayev.
37. Məmmədbağır Məmmədov.
38. Ağamirzə Məmmədov.
39. Əlihəsən Məmmədov.
40. Hacı Mir Hüseyn Hacı Mir Ələsgər oğlu.
41. Əlimövsüm Musayev.
42. Mir Mövsüm Mir Abutalıb oğlu.
43. Məşədi Əhəd Hacı Mustafa oğlu.
44. Məşədi Məmmədəli Musayev.
45. Məmmədmehti Hacı Məmmədalı oğlu.
46. Molla Abduləli Axdı Molla Mustafa oğlu.
47. Seyfəddin Xəlil oğlu.
48. Əhməd Hacı Nəbi oğlu.
49. Məşədi Ağabala Hacı Allahverdi oğlu.
50. Məmmədbağır Məmmədov.
51. Aleksandra Melik Alaxverdiyeva.

52. Ağəli Rsul Məmmədov.
53. Ağalar Məmmədov.
54. Hacı Məmmədhəsən Məmmədov.
55. Əlisgəndər Sultanov.
56. Hacı Daşdəmirov.
57. Məşədi Məmmədağa Zeynalov.
58. Məcid və Eynulla Əliyevlər.
59. Heydər Kərimov.
60. Kərbəlayi Səftər Hacı Hüseyn oğlu.
61. Məşədi Əliqulu Musayev və s. [22, s.105-108]

H.H.Əfəndiyevin nəvəsi, hazırda Bakı şəhərində həkim işləyən Hüseynağa Tofiq oğlu Abdullayevin babası ilə bağlı bir sıra dəyərli məlumatları, arxiv sənədlərini Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasına təqdim etməsi bu görkəmli şəxsin sonrakı taleyi haqqında bəzi məlumatların dəqiqləşdirilməsinə imkan verdi. Hüseynağa Abdullayevin verdiyi məlumata görə Hacı Hüseyn Əfəndiyevin Göyçay şəhərinin mərkəzindəki iki mərtəbəli evi sovet rejimi tərəfindən müsadirə olunaraq burada dəri zöhrəvi dispanseri yerləşdirilmişdi. Göyçayda xalq arasında buna Keçəllər xəstəxanası deyilirdi. Nəhayət, H.H.Əfəndiyevin oğlu Tofiq Abdullayevin ailəsinin uzun mübarizəsindən sonra həmin binanın ikinci mərtəbəsində onların yaşamasına icazə verilmişdir.

Hacı Hüseyn Əfəndiyevin Göyçay şəhərində "İqbal" adlı kitab və dəftərxana ləvazimatı mağazası fəaliyyət göstərib. H.H.Əfəndiyevin oğlu Tofiq atası repressiyaya məruz qaldıqdan sonra özünü və ailəsini qorumaq üçün Əfəndiyev soyadını Abdullayev soyadı ilə əvəz edib. Atası Hacı Hüseynin adını oğluna Hüseynağa kimi qoymuşdur.




*Göyçay şəhərinin mərkəzində fəaliyyət göstərmiş H.H.Əfəndiyevin "İqbal" adlı kitab və dəftərxana ləvazimatı mağazası üçün nəşr olunmuş konvert*



*H.H.Əfəndiyevin oğlu Tofiq, nəvəsi Hüseynağa*

H.H.Əfəndiyevin nəvəsi, hazırda Bakı şəhərində həkim işləyən Hüseynağa Tofiq oğlu Abdullayevin qısa tərcümeyi-halı:

"Mən, Abdullayev Hüseynağa Tofiq oğlu, 10 dekabr 1959-cu ildə Göyçay rayonunda anadan olmuşam. 1976-cı ildə 3 nömrəli orta məktəbin rus sektorunu bitirmişəm. 1977-1983-cü illərdə Azərbaycan Tibb Universitetinin müalicə fakültəsində təhsil almışam. 1984-1986-cı illərdə dövlət təyinatı ilə Ucar rayon Mərkəzi xəstəxanasında həkim-dermatoloq vəzifəsində çalışmışam. 1987-ci ildən hazırkı vaxta kimi Bakı şəhər 2 saylı Dəri-zöhrəvi dispanserində həkim işləyirəm.

Atam – Abdullayev (Əfəndiyev) Tofiq Hacı Hüseyn oğlu 1916-cı ildə Göyçayda anadan olub. 1939-cu ildə əsgərliyə gedib və 1941-1945-ci illər Böyük Vətən müharibəsinin iştirakçısı olub. Döyüşlərdə fərqləndiyinə görə çoxlu sayda orden və medallarla təltif olunub. Müharibədən sonra Göyçay şəhər Mədəniyyət evində tar müəllimi işləyib. 1976-cı ildə uzun sürən xəstəlikdən sonra vəfat edib.

Atası, yəni mənim babam Hacı Hüseyn Hacı Abdulla oğlu Əfəndiyev Göyçay qəzasından Azərbaycan Xalq Cümhuriyyətinin parlamentinə seçilib və 15 dekabr 1918 – 27 aprel 1920 tarixlərində Parlamentini deputatı olub. 1919-1920-ci illərdə könüllü dəstələr düzəldərək ermənilərin Qarabağda dövlət əleyhinə başladığı qiyamın yatırılmasında fəal iştirak edib.

XI qırmızı ordunun Azərbaycan Xalq Cümhuriyyətinin işğalından (27 aprel 1920-ci il) dərhal sonra həbs olunub. 7 saylı xüsusi şöbənin müstəntiqinin 3 iyun 1920-ci il qərarı ilə güllələnməyə məhkum edilib və hökm icra edilib.

Babamın əmisi Əfəndiyev Məmməd Bərdənin Lənbəran kəndinin nüfuzlu şəxsi olub. Öz vəsaiti ilə həmin kənddə məscid tikdirib və həmin məscidin axundu olub.

Sovet hakimiyyəti illərində repressiyaya məruz qalmamaq üçün atam soyadı Əfəndiyevi Abdullayevlə əvəz edib.

Anam Həsənova (Mehmandarova) Səfurə Əli qızı 1923-cü ildə Bakı şəhərində anadan olub. Ailə qurduqdan sonra Göyçaya

köçüb və burada müəllimə işləyib. Anamın anası Mehmandarova Tutu Yusif qızı Azərbaycan Xalq Cümhuriyyətinin müdafiə naziri Səməd bəy Mehmandarovun qardaşı qızı olub. 1930-cu illərdə faciəli şəkildə vəfat edib".

H.H.Əfəndiyev həbs olunduqdan sonra ağır işgəncələrə məruz qalsa da Azərbaycan Dövlət Milli Arxivində saxlanılan istintaq protokolundan bunları sübut edən faktlara rast gəlmək olmur. İstintaq protokolu rus dilində tərtib olunduğundan və sənəd çətin oxunaqlı olduğundan oxuculara aydın olmaq üçün orada yazılanları olduğu kimi yazmağı lazım bildik.

**Протокол**
**допроса 1920 г – 3 июня**

У моего отца был в Геокчае книжный магазин, этим магазинам после смерти отца я и заведовал.

Затем я был учителем. После прихода турок я никогда ими назначался на должность Председателя Высшего присутствия, поэтому я и не мог делать никаких злоупотреблений. При образовании Азербайджанской Республики я был выбран Геокчайским уездом в члены парламента и членом парламента я был до последного времени.

Действительно, будучи уже членом Парламента я уезжал в Конистантинополь. Выезжал я туда исключительно потому, что там умер мой дядя и я должен был получить наследство. Получил парламента я около 50 тысяч рублей и с этим деньгами приехал.

Деньги я уже прожил.

***Г.Г.Эфендиев***

*Показание прочитано, провильно.*
*Воен. Следователь Либерман*



ПРОТОКОЛ
допроса обвиняемого



Издавал в качестве Уездного Начальника приказ об арестах...

Особенное усердие проявил по делу Набора добровольцев, в каковом деле расширил свою бедность на несколько миллионов руб.

Бывший член Азерб. Парламента.



Показание прочитано, правильно.

Воен. Следователь

Hacı Hüseyn Hacı Abdulla oğlu Əfəndiyevin istintaq sənədlərinə sovet dövründə repressiyalara məruz qalmış minlərlə insan kimi sovet dövründə deyil, Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra yenidən baxılıb. Azərbaycan Respublika Prokurorluğunun 5 yanvar 1993-cü il rəyinə əsasən Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin 11 yanvar 1993-cü il, 11/13 saylı arayışı ilə Hacı Hüseyn Hacı Abdulla oğlu Əfəndiyevə bəraət verilib.



Азәрбајҹан Республикасы
Милли
Тәһлүкәсизлик
Назирлији

Министерство
национальной
безопасности
Азербайджанской
Республики

Азәрб. Республикасы!
Бакы шәһәри (370000)
Вурғун күчәси, ев № 161,
мәнзил № 2.
Абдуллајев
Һүсејнаға Тофиг оғлуна.

"11" јанвар 1993 ил № 11/13

Арајыш

Ефендијев Һаҹы Һүсејн Һаҹы Абдула оғлу - 1893-ҹү илдә анадан олмушдур вә Азәрбајҹан Республикасы, Көјчај маһалындан парламентин үзвү сечилмишдир. XI Ордунун хүсуси шөбәсинин 3 ијун 1920-ҹи ил гәрарына әсасән күлләләнмәјә мәһкум едилмишдир.

Азәрб. Республикасы прокурорлуғунун 5 јанвар 1993 ил рә'јинә әсасән - Ефендијев Һаҹы Һүсејн Һаҹы Абдула оғлуна - бәраәт верилмишдир.

Шө'бә рәиси: Е. Ф. Нәсиров

Азәрбајчан Республикасы
**ПРОКУРОРЛУГУ**

**ПРОКУРАТУРА**
Азербайджанской Республики

Бакы шәһәри—гор. Баку

10.02.93 № 29/853

На № ______ от ______

Бакы [illegible] күчәси 161 №-ли евин 2 №-ли мәнзилиндә јашајан Һүсејнинага Тофиг оглу Абдуллајева.

А Р А Ј Ы Ш

XI орду[illegible] хүсуси ше"бәсинин 3 ијун 1920 илдә әксингилабчы-
лыгда мүгәссирләндирилдијинә көрә күлләләнмә чәзасына мәһкум
едилмиш 1893-чү илдә Азәрбајчанда Көјчај рајонунда анадан олмуш
Һачыһүсејни Һачы Абдулла оглу Әфәндијевин ЛС-12171 №-ли ишинә
јенидән бахылмышдыр.

ССРИ Али Советинин Рәјасәт Һеј"әтинин 16.01.89-чу ил тарих-
ли "30-40 вә 50-чи илләрин әввәлләриндә репресија гурбанлары
һаггында әдаләтин бәрпа едилмәси барәдә әлавә тәдбирләр һаггында"
фәрманын 1-чи маддәсинә әсасән Һачыһүсејн Һачы Абдулла оглу Әфән-
дијев 5.01.93-чү илдә тәмизә чыхарылмышдыр.

Репресијаја уграм[illegible]
тәмизә чыхарылм[illegible] [illegible]ин рәиси баш
әдлијјә мүшавири

В.Һ.Мәммәдов



ПОСТАНОВЛЕНИЕ

6

1920 года Июня 3-го дня, я Следователь Особотделения № 7 рассмотрев дело по обвинению Эфендеева Гаджи Гусейна и, принимая во внимание характеристику Председателя Геогчайскаго Ревкома в которой он характеризирует обвиняемаго с весьма плохой стороны как элемента безусловно вреднаго для общества, оставление котораго на свободе безусловно вредно отзовется на благосостоянии общества, что названный обвиняемый принадлежит к категории кулаков, врагов Советской Власти подрывающих авторитет ея
ПОСТАНОВИЛ.
обвиняемаго Эфендеева Гаджи Гусейна разстрелять.
Военный Следователь
УТВЕРЖДАЮ:

H.H.Əfəndiyev kimi "Əhrar" partiyasının digər rəhbər üzvləri də işğaldan sonra faciəli tale yaşamışlar. Fikrimizcə H.H. Əfəndiyevin əqidə yoldaşlarının taleyi haqqında məlumatlar onun ictimai-siyasi fəaliyyətinin daha düzgün işıqlandırılmasına kömək edə bilər.

H.H.Əfəndiyevin ictimai-siyasi fəaliyyəti haqqında daha dolğun, obyektiv məlumat əldə etmək üçün ilk növbədə onun 15 dekabr 1918 – 27 aprel 1920 tarixlərində Parlamentdə "Əhrar" fraksiyasında təmsil olunan 8 deputatdan biri kimi fəaliyyətinə diqqət verilməsinə ehtiyac var. Deməm olar ki, unudulmuş, elmi ədəbiyyatda ictimai-siyasi fəaliyyətləri haqqında çox az məlumat olan bu şəxsiyyətlərin xalqa yenidən tanıdılmasında professor Ədalət Tahirzadənin, Əsginaz Həmidqızının, Pəri xanım Novruzovanın, Məhsun Qədirovun, Vüsal Baxışovun, Tahir Abbaslının, İlham Ahmadovun, Natiq Məmmədzadənin və digər müəlliflərin yazdıqları məqalələr mühüm əhəmiyyət kəsb edib. Bu sahədə

Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli tədqiqatçı, professor Ədalət Tahirzadənin tədqiqatları xüsusi qeyd edilməlidir.

Hacı Hüseyn Əfəndiyevin təmsil olduğu Əhrar Fraksiyasına aşağıdakı 8 parlament üzvü daxil idi:

1. Aslan bəy Qardaşov
2. Hacı Molla Əhməd Nuruzadə
3. Muxtar Əfəndizadə
4. Qərib Kərimoğlu
5. Bayram Niyazi Kiçikxanlı
6. Hacı Hüseyn Əfəndiyev
7. Hacı Əli Qasımoğlu
8. Abdulla bəy Qəbulov [4, s. 151-154]

Azərbaycan Xalq Cümhuriyyəti Ensklopediyası. İki cilddə I cild. "Lider nəşriyyatı." Bakı 2004, 440 s.

Hacı Hüseyn Əfəndiyevin təmsil olunduğu Əhrar Fraksiyasına bəzi tarixi mənbələrdə 8, bəzilərində isə 9 parlament üzvü daxil olduğu göstərilsə də, araşdırma nəticəsində bunların sayının 13 nəfər olduğu aşkara çıxarılıb. Fikrimizcə bunun əsas səbəblərindən biri fraksiyanın əsas üzvlərindən, hökumətdə nazir vəzifəsini tutmuş Rəşid bəy Qaplanovun bəzi mənbələrdə fraksiya üzvü kimi qeyd olunmamağıdır. Bundan başqa digər səbəb Abdulla Əfəndi Qabulovun səhhəti və ailə vəziyyətinə görə istefa verdikdən sonra oğlu Qəbulzadə Abdulla əfəndi İbrahim (Hacıbaba) əfəndi oğlunun parlamentə seçilməsi və "Əhrar" fraksiyasına daxil olmasının fraksiyanın siyahısında nəzərə alınmamağıdır. Bundan başqa bəzi mənbələrdə 8 nəfər fraksiya üzvü siyahısında Abdulla bəy Əfəndizadə, bəzilərində isə Abdulla Əfəndi Qabulovun göstərilməsi, Abdulla bəy Əfəndizadənin "Əhrar" fraksiyasından ayrılaraq, "Müstəqil sosialist" fraksiyasına keçməsi, ola bilsin, onların eyni adda olması da belə bir vəziyyətin yaranmasına səbəb olub. Sonradan Məşədi Səməd Həsənoğlu (1885 – ?) və Əşrəf bəy Həsən bəy oğlu Tağıyev (1867-1930) kimi yeni üzvlərin "Əhrar" fraksiyasına qoşulması fraksiya üzvlərinin sayını artırsa da həmin şəxslərin mənbələrdə fraksiyanın siyahısında

göstərilməməyi də, fraksiya üzvlərinin yanlış olaraq 13 deyil, 8 nəfərdən ibarət olması təsəvvürü yaradıb.

Fikrimizcə mənbələrdəki bu ziddiyyətlərə baxmayaraq Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində Hacı Hüseyn Əfəndiyevin silahdaşları olmuş, müxtəlif vaxtlarda parlamentdə "Əhrar" fraksiyasını təmsil etmiş 13 nəfərin fəaliyyəti və işğaldan sonrakı üzləşdikləri faciələr haqqında obyektiv məlumatların verilməsinə ciddi ehtiyac var. Bu məlumatlar "Əhrar" fraksiyasının, o cümlədən Hacı Hüseyn Əfəndiyevin parlamentdəki fəaliyyəti haqqında daha dolğun təsəvvür yaranmasına imkan verə bilər. Məsələn, bu şəxslərin fəaliyyətinin tədqiqi sübut edir ki, Hacı Hüseyn Əfəndiyev işğaldan dərhal sonra, Aslan bəy Əli ağa oğlu Qardaşov işğalçılara qarşı Zaqatala üsyanına rəhbərlik etdiyinə görə 1920-ci ilin iyul ayında güllələnmişlər. Hacı Molla Əhməd Nuruzadə işğalçı rejimə qarşı mübarizə aparmış, qaçaq hərəkatına rəhbərlik etmiş, 1930-cu ildə sovet dəstələri ilə döyüşərkən ələ keçməmək üçün intihar etmişdir. Bəziləri bir qədər sonra, 1930-cu illərdə repressiyalara məruz qalmış, güllələnmiş, bəziləri isə repressiyalara məruz qalsalar da sonradan mütəxəssis kimi sovet hakimiyyəti ilə əməkdaşlıq etmişlər. Bütün bu kimi faktlara "Əhrar" fraksiyası üzvlərinin ictimai-siyasi fəaliyyətinə aid aşağıdakı məlumatlarda rast gəlmək olar:



**Aslan bəy Əli ağa oğlu Qardaşov (1866-1920) –** 1866-cı ildə Zaqatala dairəsinin Çökəkoba kəndində anadan olub. Zaqatala qəza məktəbində oxumuşdu. Sonra Müəllimlər Seminariyasını bitirmişdi. İstanbul universitetində təhsilini davam etdirmişdi. Hüquq, maarif sahəsində çalışmışdı. Dağıstandan II Dumaya üzv seçilmişdi. 1917-ci ildən Müsavat partiyasının üzvü idi.

Əhrar partiyasının sədri, "İstiqlal bəyannamə"sinə imza atan şəxsiyyətlərdən biri. Milli Şuranın üzvü kimi Parlamentə daxil olub, 7 dekabr 1918 – 27 aprel 1920-ci il tarixində Əhrar fraksiyasına rəhbərlik edib. Parlamentdə "Əfv-ümumi", "Qanun layihəsi", "Nizamnamə", "Müdafiə", "Məmləkətin məhsulatını hüsn istifadə", "Maliyyə və büdcə", "Mərkəzi seçki", "Torpaq", "Fəhlə" komissiyalarının və "Əli Bayramovun qətli istintaqı üzərində nəzarət üçün xüsusi komissiya"nın üzvü olub. Azərbaycan Xalq Cümhuriyyətinin dördüncü hökumət kabineti təşkil edildikdə (14 aprel – 22 dekabr 1919-cu il) əkinçilik naziri vəzifəsi ona tapşırılıb.

1920-ci il aprelin 15-də Aslan bəy Qardaşov "Əhrar" fraksiyası adından koalisiyadan çıxdığını bəyan edir və nümayəndələrini hökumətdən geri çağırır. Bundan sonra, 1920-ci il aprelin 27-də hakimiyyətin kommunistlərə təhvil verilməsi haqqında ultimatumu müzakirə etmək üçün parlamentdə yaradılmış komissiyaya daxil olur. [46]

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra RSFSR Gürcüstan ilə sərhədləri nizama salmaq haqqında danışıqlara başladı. 7 may 1920-ci ildə Gürcüstan Konstitusiya Məclisi üzvü Uratadze və RSFSR Xarici işlər komissar müavini Lev Karahan arasında dostluq haqqında anlaşma imzaladı. Bu razılaşmaya əsasən, RSFSR Gürcüstan dövlətinin müstəqilliyini şərtsiz tanıdığını bildirirdi. Bundan sonra Zaqatala okruqunda Sovetlərə qarşı güclü üsyan başlayır. Sovet qoşunları bəzi ərazilərdə geri çəkilməyə başlayır. Zaqatala okruqunu faktiki idarə edən "Əhrar" partiyası lideri Aslan bəy Qardaşov Sovet hökümətini tanımadığını elan edir. [25;33;56]

Üsyan yatırıldıqdan dərhal sonra Aslan bəyi bolşeviklər 1920-ci il iyulun 21-də güllələyiblər. [56]



**Rəşid xan Zabit xan oğlu Qaplanov –** 1885-ci ildə Türk xalqları ailəsinə daxil olan Qumuq xalqının o zamankı mədəni mərkəzlərindən olan Aksayda (hazırda bu kənd Dağıstan Respublikasının Xasavyurd rayonuna aiddir) anadan olub. Fransada Sorbon Universitetində (Paris) təhsil alıb. Onun Fransaya təhsil almağa getməyində əmisi oğlu Əhməd Səidin böyük rolu olub. Əhməd Səid Rusiyada kadet korpusunu bitirdikdən sonra burada böyük perspektivləri olsa da, 1888-ci ildə Osmanlı təbəəliyini qəbul etmiş, Sədrəzəm Qazi Ə.M.Paşanın yavəri olmuş və onun Misir valiliyi dövründə (1899-1902) Qahirədə "Sancaq" adlı qəzet nəşr etmişdi.

Sorbon Universitetinin Hüquq fakültəsində təhsil almaqla yanaşı, bu əcnəbi ölkənin ədəbi-mədəni mühitində fəal iştirak edən Rəşid Parisdəki "gənc türklər"lə tez-tez görüşlər, siyasi yığıncaqlar keçirir.

1910-cu ildə universiteti bitirən Rəşid Vladiqafqaza deyil, İstanbula gedir. Bunun bir səbəbi də Parisdə olarkən tez-tez görüşüb, milli-mənəvi fikir mübadilələri etdiyi "Gənc türklər" təşkilatı üzvlərinin əksəriyyətinin Osmanlı dövlətində rəhbər vəzifələrdə olmaları ilə bağlı idi. Hələ Parisdən dostluq etdiyi, 1909-cu ildə İstanbulda ilk rusdilli türk mətbuatının ("Stambulskie novosti") əsasını qoymuş C.Qorxmazov, Misirdən dönərək İstanbulda yenidən mətbuat sahəsində və universitetin professoru kimi fəaliyyət göstərən əmisi oğlu Əhməd Səid də onların arasında idi. Rəşidi də universitetdə işə götürürlər, lakin üç il sonra o, atasının təkidilə vətənə dönməli olur. 1917-ci ilin fevralınadək Vladiqafqazda məhkəmə sistemində çalışır.

1917-ci ilin martında Vladiqafqazda Birləşmiş Dağlıların Müvəqqəti Mərkəzi Komitəsi yaradılır, may toplantısında Şimali Qafqaz və Dağıstan Dağlıları İttifaqı, sentyabr qurultayında

(Abxaziyanın da İttifaqa qatılmasından sonra) Şimali Qafqaz, Dağıstan və Abxaziya İttifaqı adlandırılır. Qurultayda qumuqların, qaranoqayların və Stavropol quberniyası türkmənlərinin nümayəndəsi kimi iştirak edən Rəşid xan Qaplanov dil və din fərqlərini də aradan qaldırmaq amacı ilə "dağlı" ideologiyasını irəli sürür və rəhbərlik etdiyi qrup ittifaqın siyasi platforma, proqram və konstitusiyası kimi mühüm sənədlərinin hazırlanmasında böyük işlər görür.

1917-ci ilin dekabrından 1918-ci ilin martınadək Terek-Dağıstan hökumətinin sədri (və xarici əlaqələrin rəhbəri), iki ay sonra birləşmiş Şimali Qafqaz Dağlıları Respublikasının parlament üzvü, dekabrdan isə daxili işlər naziri kimi fəaliyyət göstərmiş R.Qaplanov hökumət istefa verdikdə ağqvardiyaçılarla əməkdaşlıq edən yeni kabinetdə iştirakdan imtina edərək Bakıya gəlir. Burada ətrafına olduqca yüksək təsir bağışlayan Rəşid xan Nəsib bəy Yusifbəylinin başçılıq etdiyi hökumətdə xalq maarifi və dini etiqadlar naziri təyin edilir.

Azərbaycanda ilk universitetin açılmasında, xarici universitetlərdə təhsil almaq üçün hərtərəfli hazırlığa malik tələbələrin seçilib göndərilməsində, ümumtəhsil məktəbləri şəbəkəsinin genişləndirilməsində, Bakı Dövlət Universitetinin yaradılmasındakı Rəşid xanın misilsiz xidmətləri olub. Universitetdə Osmanlı tarixi və ədəbiyyatından dərs deyib.

Bolşeviklər Azərbaycanı işğal etdikdən az sonra (iyun 1920) Rəşid Qaplanov həbs edilir. Həmin vaxt Bakıya gələn Stalin M.Ə.Rəsulzadə ilə birlikdə Rəşid xan Qaplanovu da həbsdən azad etdirir. Moskvaya getməli olan Rəşid xan Qaplanov RSFSR Xalq Maarifi Komissarlığında çalışır, Şərq Zəhmətkeşləri Universitetində, Moskva Şərqşünaslıq İnstitutunda orta əsrlər və yeni dövr türk tarixi üzrə mühazirələr oxuyur. 1930-cu ildə o yenidən həbs edilib, fəaliyyətində cinayət tərkibi olmadığına görə azadlığa buraxılsa da, 1937-ci ildə yaxın dostları və məsləkdaşları kimi onu da həbs edərək dekabrın 10-da güllələyirlər.

Rəşid Qaplanovun oğlu Murad Kaplanov sonradan S.P.Korolyovun rəhbərliyi altında çalışan "Molniya-1" adlı raket qurğularının hazırlanmasında xüsusi xidmətlərinə görə iki dəfə SSRİ Dövlət mükafatına layiq görülüb. [52]



**Hacı Molla Əhməd Nuruzadə (1881–1930) –** Gəncə qəzasından Parlamentə millət vəkili seçilib. Əhrar partiyasının və fraksiyasının üzvü olub. 15 dekabr 1918 – 2 iyun 1919-cu il tarixilərində "Tərtibat və ləvazim" komissiyasının, 21 iyul 1919 – 9 oktyabr 1919-cu il tarixində "Maliyyə və büdcə" komissiyasının üzvü olub.

Şamxor (hazırda Şəmkir) rayonun Düyərli kəndində anadan olub. Hacı Axund adı ilə də tanınıb. 1918-ci ildə bolşevik-daşnaklarla mübarizə zamanı Hacı Molla Əhməd Nuruzadənin, Yeg Mustafanın və Kərbəlayi İsmayılın rəhbərliyi altında Düyərli sakinləri Qafqaz İslam Ordusu üçün maddi-texniki təminat ləvazimatlarının toplanmasına çalışmış, bəziləri Molla Əhməd ilə birlikdə Qafqaz İslam Ordusuna qatılaraq Bakı uğrunda döyüşlərdə iştirak etmişlər. 1920-ci ilin may ayında Gəncə üsyanından sonra Nuruzadə tərəfdarları Məşədi Həsən, Məşədi Əli və gəncəli həyat yoldaşı Ələviyyə faytonla Gəncədən uzaqlaşarkən artilleriya atəşinə tutulurlar və faytonçular ağır yaralanır, iki gün sonra Düyərlidə vəfat edirlər. Sağ qalan Molla Əhməd yenə kəndin axundu olur. 1927-ci ilin sentyabrında XDİK (NKVD) onu saxlamağa Zəyəm kəndindən adamlar göndərir, bundan sonra Hacı Axund 200 qaçaqla birlikdə dağlara çəkilib mübarizəsini davam etdirdi.

17 noyabr 1930-cu il gecəsində Nuruzadənin dəstəsi aktiv sabotaj fəaliyyətinə başladı. Onlar Sovet ordu birləşmələrinin

yerləşdiyi yerə yaxın ərazilərdə 3 əsas əməliyyat həyata keçirdilər. Saat 22:00-də Nuruzadənin dəstəsi Zəyəm ilə Dülyər stansiyaları arasındakı teleqraf xəttini kəsdilər. Bundan başqa Bakı-Batumi kerosin kəməri və 4 metr uzunluğundakı dəmiryolu körpüsünü yandırdılar. İosif Stalinin əmri ilə Düyərli kəndi "quldur yuvası" hesab edilərək 3 gün ərzində tamamilə dağıdıldı. 27 noyabrda onlar Kürün sol sahilinə - Ceyrançöl ərazisinə keçdilər. Buraya gələn partizanların ümumi sayı təxminən 300 nəfərə çatmışdı. Dekabrın əvvəllərində Cənubi Qafqaz GPU məruzə edirdi ki, Gəncə qəzasında üsyançılara qarşı döyüşlər baş vermişdir. Məruzədə üsyançıların sayı min nəfər olaraq göstərilir.

Nuruzadə Şamxorla yanaşı Qasım-İsmayılov (indiki Goranboy) rayonlarındakı kəndlərin xeyli hissəsini öz təsiri altına almışdı. Bu bölgələrdəki qolçomaqlar bu hərəkatın maddi-texniki təmin edilməsində və ona məlumat verilməsində mühüm rol oynayırdılar. Döyüşlərin birində Nuruzadə ağır yaralandı və ayaqlarından birini itirdi. Bundan sonra o, günlərini Şimanlı tayfasına məxsus olan çoban daxmasında keçirməyə məcbur oldu. Sovet hakimiyyət dairələri bundan xəbər tutduqdan sonra aidiyyəti orqanlara bu barədə məlumat verdilər. Nuruzadənin qaldığı daxmanın ətrafı təhlükəsizlik orqanları işçiləri tərəfindən mühasirəyə alındı. Nuruzadə çoban Məmməddən əsgərlərə onun öldüyünü deməsini istəyir. Çoban belə etdikdən sonra bunu yoxlamağa gələn əsgərlərdən beşini öldürən Nuruzadə dərhal atına minərək uzaqlaşmağa çalışır. At belində də bolşeviklərlə atışan Nuruzadə sonuncu gülləsini özünə vuraraq intihar edir. Onun ölümündən sonra Qızıl Ordu Hacı Axundun qoşunlarının bir hissəsini əsir götürdü, Şamxor və ətrafında repressiyalar gücləndi. [5;17;18;29]



**Əfəndizadə Muxtar İsmayıl oğlu** (1 yanvar 1880 – 19 oktyabr 1975) – Milli Məclidə Əhrar partiyası fraksiyasının üzvü. 1880-ci ilin yanvar ayında Ağdaş rayonunun Şəmsabad kəndində mədrəsə müəllimi ailəsində anadan olub. Şərqşünas, alim. Azərbaycanda, Krımda, Zaqafqaziyada, Türkiyədə və ərəb ölkələrində Muxtar Əfəndi adı ilə tanınıb.

Azərbaycanın mədəni həyatında diqqəti cəlb edən hadisələrdən biri də 1909-cu ildə Muxtar Əfəndi tərəfindən "Səadət" qız məktəbinin açılması idi. Tağıyev məktəbini bitirmiş Hədiyyə xanım Məmmədovanın rəhbərlik etdiyi bu məktəbdə qiraət, hesab, hesabi-zehni, şəriət, Quran və s. fənlərdən dərslər keçirilirdi.

Görkəmli maarifçi Muxtar Əfəndizadə tərəfindən təsis edilən bu maarif və mədəniyyət müəssisələrinin fəaliyyəti açıldıqları gündən başlayaraq 1920-ci ilə qədər davam etdi və bu məktəblər minlərlə oğlana, qıza savad və bilik verdi.

Maarifçiliyin inkişafında uzun müddət cəsarət və ləyaqətlə fəaliyyət göstərən Muxtar Əfəndizadə əhalinin dərin rəğbətini qazanır və buna görə də xalq onu Ərəş qəzasından Azərbaycan Cümhuriyyətinin parlamentinə nümayəndə seçir. Təhsil, səhiyyə və qanun layihəsi komissiyalarının üzvü olub. 12 dekabr 1919-cu ildən M.Əfəndizadə parlamentdə Əhrar partiyasının üzvü kimi fəaliyyət göstərir. 1920-ci ilin aprelində Nəsib bəy Yusifbəyov kabineti istefa verərkən o, da siyasətdən uzaqlaşır və maarifçilik fəaliyyətini davam etdirir. Parlamentdəki fəaliyyətinə görə 30-cu illərin repressiyasının qara buludları ondan da yan keçmir və haqsızlığa məruz qalan maarifçi bir neçə il sürgün həyatı keçirməyə məcbur olub.

1930-cu ildə o, savadlı bir maarifçi kimi maarif nazirinin təklifi ilə Gürcüstana göndərilir. Muxtar Əfəndizadə 1932-ci ilə

qədər Tiflisin ali tədris ocaqlarında dil və ədəbiyyat dərslərini deməklə həm də Tiflisdə nəşr olunan “Yeni kənd” qəzetinin redaktoru və “Dan ulduzu” məcmuəsinin korrektoru vəzifəsində çalışır. Lakin səhhəti ilə əlaqədar o, həkimlərin məsləhəti ilə Bakıya qayıtmağa məcbur olur.

Bakıya qayıtdıqdan sonra Muxtar Əfəndi maarif nazirinin əmri ilə baş mətbuat müdirliyində və tarix institutunda tərcüməçilik fəaliyyətinə başlayır.

1939-1944-cü illərdə o, ərəb və fars dillərindən İsgəndər Münşinin, Mirxondun, İbn Əl-Əsirin əsərlərini Azərbaycan dilinə tərcümə edir. Sonralar, 1958-ci ildə isə Muxtar Əfəndi Sədinin məşhur “Gülüstan” əsərinin Azərbaycan dilinə sətri tərcüməsini edir.

1944-cü ildə Azərbaycan Dövlət Universitetinin rəhbərliyi ərəb və fars dillərinin mükəmməl bilicisi kimi Muxtar Əfəndizadəni elm ocağına dəvət edir və o, uzun illər universitetin şərq dilləri fakültəsində dərs deməyə başlayır. 1947-ci ildə Muxtar Əfəndi professor İbadulla Qarayevin tapşırığı ilə “Miftahül lisan ül ərəb” (ərəb dilinin açarı) adlı dərslik yazır. Ali məktəblər üçün yazılmış bu dərslik keçmiş SSRİ-də nadir hadisə hesab edilirdi və dünya şöhrətli ərəb dili mütəxəssisi akademik Kraçkovski bu dərsliyə yüksək qiymət verərək Muxtar Əfəndizadəni ərəb və fars dillərinin mükəmməl bilicisi adlandırır. Görkəmli maarif xadimi Muxtar Əfəndizadə 1975-ci ildə 95 yaşında vəfat edib. [24]



**Qərib Kərimoğlu** (1870-1926) Nuxa qəzasından Parlamentə seçilib, 15 dekabr 1918 – 11 mart 1920-ci il tarixlərində Torpaq və Fəhlə komissiyalarının üzvü olub.

Qərib Məmmədkərimoğlu (Yüzbaşı) 1870-ci ildə Oğuz rayonunun Xaçmaz kəndində yoxsul bir ailədə dünyaya gəlib. 1912-ci ildə qardaşı ilə

birgə Padar kəndinə köçüb. Qardaşı bir qonaqlıq zamanı ev sahibinə atılan güllənin hədəfi olub və dünyasını dəyişib. 1912-də Padara bir mis kasa ilə gələn Qərib Yüzbaşı qısa müddət ərzində biliyi və bacarığı sayəsində böyük var-dövlət, mülk sahibi olur. Onun işgüzarlığı və təsərrüfata olan marağı kənd sakinlərinə agah idi. O, aclıq vaxtı bütün rayon camaatına, həm də rayonun yəhudi icmasına çox kömək edib. Xeyriyyəçiliklə məşğul olan bu insan kənddə bir çox yeniliklərə və insanların rifahını yüksəldəcək əməllərə imza atıb. Öz hesabına kənddə məscid və xəstəxana tikdirib.

Qərib Yüzbaşı Azərbaycanda qərb texnikasını istifadəyə verən şəxslərdən biri kimi də tanınır. Onun təşəbbüsü ilə 1912-ci ildə Almaniyadan ilk dəfə Azərbaycana taxıldöyən maşın gətirilir və kənd camaatının öhdəsinə verilir. Hazırda həmin texnika qonşu kəndlərdən olan Yemişənlidəki bir həyətdə abidə kimi saxlanılır. Gələcəkdə o texnikanın Qərib Yüzbaşının həyətinə gətirilməsi nəzərdə tutulub.

1918-ci illərdə Nuru Paşanın rəhbərliyi ilə Qafqaz İslam Ordusunun Oğuz bölgəsindəki başçısı Abdulla Paşa məhz Qərib Yüzbaşının evində qalıb.

1918-də Azərbaycan Xalq Cümhuriyyəti qurularkən Qərib (Məhəmməd) Kərim oğlu Şəki qəzasının Vartaşen (indiki Oğuz) nahiyəsində İcraiyyə Komitəsinin sədri idi (bu vəzifəyə 1917-ci il fevral inqilabından sonra seçilmişdi). O dövrlərdə Qərib Yüzbaşı parlamentdə "Əhrar" partiyasını təmsil edirdi. Parlamanın 24 aprel 1919-cu il tarixli iclasının stenoqramı qarşımızdadır. İclasın sədri Həsən bəy Ağayev bildirir ki, torpaq komissiyası 3 dəfə yığışmadığına görə buraxılır və onun yeni heyəti seçilməlidir. Ağayevin təklifi ilə partiyalar bu komissiyaya öz namizədlərini verir. Seçilmək üçün hər deputat 42 səsdən ən azı 22-sini yığmalı idi. Keçirilmiş gizli seçkinin nəticələrini Abbasqulu Kazımzadə açıqlayır: 26 səs toplamış Qərib Yüzbaşı ən çox səs yığmış Məhəmməd Əmin Rəsulzadə, Aslan bəy Qardaşov, Cavad bəy Məlikyeqanov, Əliheydər Qarayev və Heybətqulu Məhəmmədbəyov ilə

birlikdə torpaq komissiyasına üzv seçilib. Bu seçkidə ən çox səs toplayan həmin 7 nəfər Məhəmməd Əmin Rəsulzadənin təklifi ilə həm də fəhlə komissiyasına üzv olur. Beləliklə, Qərib (Məhəmməd) Kərimoğlu Parlamentin iki mühüm komissiyasına eyni zamanda üzv seçilib.

Onun təşəbbüsü ilə rayona müxtəlif çeşidlərdə fərqli alma növləri, eləcə də digər kənd təsərrüfatı məhsulları gətirilib və becərilib. Hökumət sovetləşdikdən sonra o, mülkünü və texnikasını könüllü kolxoza təhvil verib. Sonra bütün rayona xəbər yayılıb ki, kommunistlər Qərib Yüzbaşını həbs etməyə gəlir. Bunu eşidən yerli əhali, habelə Oğuz yəhudiləri 17 km piyada yol qət edərək buna mane olublar. Kənd ağsaqqalı, xeyriyyəçi Qərib Yüzbaşı 1926-cı il oktyabrın 9-da qəflətən dünyasını dəyişib. [11]



**Bayram Niyazi Kiçikxanlı –** (1889, Faldarlı, Zaqatala dairəsi – 1922, Bakı) – 1889-cu ildə Zaqatala dairəsinin Faldarlı kəndində anadan olmuşdur. Orenburq seminariyasını bitirdikdən sonra Bakıda əmək fəaliyyətinə başlamışdır.

28 iyun 1918-ci ildə Zaqatala Milli Şurası Azərbaycan Xalq Cümhuriyyəti hökumətinə muxtar ərazi olaraq onun subyekti olmaq istədikləri barədə Zaqatala Milli Şurasının sədri Nurula Qazızadə və katibi Bayram Niyazi Kiçikxanovun imzası ilə aşağıdakı mətndə teleqraf göndərir:

"Bölgənin müsəlman əhalisinin 95% olması Zaqatala okruqunun Gürcüstana birləşməsinn qarşısındakı əsas maneədir. Dağıstana gəldikdə bura ilə aramızda keçilməyən dağlar var. Zaqatala okruqu, mədəniyyət, iqtisadiyyat, həyat tərzi, din, sənaye və dil baxımından eyni mənşəli Azərbaycanla daha yaxındır. Bizim üçün sənaye malları və materialları yalnız Azərbaycandan əldə

edilə bilər. Buna görə də, Azərbaycanla birləşmə Zaqatala okruqu əhalisinin məqsədləri və üstünlüklərinə cavab verirdi. Bütün bunlar da Okruq Milli Şurası tərəfindən nəzərə alındı. Bölgəmizlə mərkəz arasındakı əlaqəni möhkəmləndirmək üçün Zaqatala rayon mərkəzini Yelizavetpol şəhərinə bir avtomobil yolu və ya dəmir yolu ilə birləşdirmək istəyirik".

2 gün sonra, 30 iyun 1918-ci il tarixində II Xoyski hökuməti Zaqatala dairəsinin özünün ərazi subyekti olduğunu elan edir.

5 dekabr 1918-ci ildə Zaqatala dairəsindən Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü seçilmiş, sənədləri 16 yanvar 1919-cu ildə təsdiqlənmişdir. Bayram Niyazi Kiçikxanlı parlamentdə Əhrar fraksiyasının üzvü idi. O, parlamentin fəhlə komissiyasının və mərkəzi seçki komissiyasının üzvü olmuşdur. Parlamentin 8 yanvar 1919 tarixli iclasında sədrə yeni 2 katib müavininin seçilməsi məsələsi müzakirə olunmuşdur. Səsvermədə Əhrar adından Bayram Niyazi Kiçikxanlı, müsavat və bitərəflər fraksiyası adından isə Mehdi bəy Hacınski katib seçilmişdir.

25 yanvar 1919-cu ildə parlamentin sayca doqquzuncu iclasında komissiya tərəfindən baxılmış olan "Ədəmi-ictimai" qanunu Məhəmməd Əmin Rəsulzadənin müdafiəsinin ardından yekdilliklə qəbul edilir. Qanunun qəbulundan sonra parlamentin 4 fevral 1919-cu il tarixli sayca on ikinci iclasında Vladimir Ollonqren, Abdulla Qəbulzadə, Bəhram bəy Vəzirov, Bayram Niyazi Kiçikxanlı, Əli bəy Zizikski, Hacı Hüseyn Əfəndizadə və Rəşid bəy Axundzadə hökumət qulluğundan istefa verərək, parlament üzvlüyünü qəbul etdilər.

Parlamentin 12 yanvar 1920 tarixli sayca yüz on altıncı iclasında 29 dekabr 1919-cu il tarixində baş katib seçilən Mehdi bəy Hacınski baş katiblikdən istefa verdiyini elan edir. Elə həmin iclasda Rəyasət Heyətinə seçkilər keçirilir. Sultan Məcid Qənizadə 27 vərəqə ilə sədrin ikinci müavini, Mehdi bəy Hacınski 31 vərəqə və Bayram Niyazi Kiçikxanlı 27 vərəqə ilə katiblik (baş katibin müavini) postuna namizəd göstərildi. Səsvermə nəticəsində Sultan Məcid Qənizadənin lehinə 42 ağ şar, əleyhinə 14 qara şar;

Bayram Niyazi Kiçikxanlının lehinə 54 ağ şar, əleyhinə 1 qara şar; Mehdi bəy Hacınskinin lehinə 54 ağ şar, əleyhinə 14 qara şar istifadə olundu. Nəticədə hər biri namizəd göstərildiyi vəzifəyə seçildi.

Parlamentin 16 fevral 1920 tarixli sayca yüz iyirmi beşinci iclasında Bayram Niyazi Kiçikxanlı bir ay yarımlıq məzuniyyətlə Zaqatalaya getdiyi üçün mərkəzi seçki komissiyası üzvlüyündən istefa verib. 1922-ci ildə Bakıdan vəfat edib. [5;25]


٢٤

شهادتنامه

آذربایجان جمهوریتی مجلس مبعوثان
اعضاسندن اولدیغی تصدیق ایدیلیر

مجلس مبعوثان رئیسی
باش کاتب

Удостовѣреніе.

Предявитель сего ... Байрамъ-Ниязи ... состоитъ членомъ Азербайджанскаго Парламента, что подписями и приложеніемъ печати удостовѣряется.

Предсѣдатель Парламента
Секретарь

**Hacı Əli Qasımoğlu –** "Əhrar" partiyasından Azərbaycan Xalq Cümhuriyyətinin Parlamentinə üzv seçilib.

Hacı Əli Qasımoğlu böyük oğul olduğundan atası Kərbəlayı Qasımın vəfatından sonra nəslin ağsaqqalı olub. Onun kiçik qardaşı Qasımov Məşədi Kərbəlayi oğlu, Bala Məşədi "Difai" müdafiəsi təşkilatının üzvü kimi xalqının yolunda əlindən gələni əsir-

gəməyib və vətənpərvər bir şəxsiyyət kimi tarixdə iz qoyub. Azərbaycanda Şərqin ilk Demokratik Respublikası qurularkən Məşədi Qasımov könüllü olaraq evlərindən birini ADR hökumətinə bağışlayıb. 1918-ci il iyunun 17-də Fətəli xan Xoyskinin sədrliyi ilə keçirilən iclasda təsdiq edilmiş Azərbaycan Xalq Cümhuriyyətinin ikinci hökuməti həmin binada 1918-ci il 17 sentyabradək fəaliyyət göstərib. Hazırda həmin binada Gəncə Dövlət Aqrar Universitetinin baytarlıq fakültəsi fəaliyyət göstərir.



Hacı Əli Qasımoğlunun kiçik qardaşı Qasımov Məşədi Kərbəlayi oğlu, Bala Məşədi Gəncə Müsəlman Xeyriyyə Cəmiyyətinin üzvləri olmuş, Cəmiyyətə maddi yardım göstərmişlər. Cəmiyyətin balansında kasıblara köməklik məqsədilə buğda, un, qənd və s. anbarlar yaradılmışdı. Gəncə məhəllələrində yaşayan kasıb evlərinin və insanların siyahısı tutularaq, onlara Novruz, Ramazan və Qurban bayramlarında yardım göstərilirdi. Cəmiyyət şəhərdəki ikisinifli müsəlman məktəbinin şagirdlərinə, Qarabağ və Zəngəzurda erməni-daşnaklar tərəfindən soyqırımına məruz qalmış türk-müsəlman əhaliyə yardım edirdi. Cəmiyyət Gəncədə əhalinin kasıb təbəqələri üçün xüsusi ərzaq mağazası da açmışdı. [55]

Ötən əsrin əvvəllərində Türkiyədə quraqlıq və aclıq olan zaman Bala Məşədi öz təsərrüfatından bir neçə vaqon buğda-taxılı qardaş Türkiyə Cümhuriyyətinə göndərib. Dəqiq məlumatlara görə, Mustafa Kamal Atatürk Bala Məşədinin bu hərəkətinə görə ona təşəkkür məktubu da ünvanlayıb. Lakin Sovet Hakimiyyəti qurulan zaman onun qohumları ehtiyat edərək, Bala Məşədinin Atatürklə çəkdirdiyi şəkillərini, sənədlərini yandırıblar.

***Hacı Əli Qasımoğlunun kiçik qardaşı Qasımov Məşədi Kərbəlayi oğlu, Bala Məşədi***



Hacı Əli Qasımoğlu XX əsrin əvvəllərində milli dirçəliş yolunda hərtərəfli fəaliyyət göstərib. Sərvətinin böyük hissəsini xalqın və millətin rifahı yolunda sərf edib. Hətta deyilənə görə, Hacı Əli Qasımoğlu həmin dövrdə Bakı şəhərinə "Şollar" suyunun çəkilişinə də maddi dəstək verib.

Azərbaycanda Xalq Cümhuriyyətinin süqutundan sonra başlanan repressiyalara Hacı Əli Qasımov, Bala Məşədi və onların ailələri də məruz qalırlar. Onların var-dövlətləri hökumət və digər qüvvələr tərəfindən talan edilir, müsadirə olunur. Sovet Hakimiyyəti qurularkən çoxları Bala Məşədi və qardaşı Hacı Əli Qasımova Türkiyəyə köçməyi təklif ediblər Lakin Bala Məşədi və qardaşı Hacı Əli ailəsini, vətənini buraxıb heç yerə getməyəcəklərini deyiblər.

O, 1931-ci ildə ailəsi ilə birlikdə Qazaxıstana sürgün edilib. 1933-cü ildə isə ailəsilə birlikdə Gəncəyə qayıdıb. Bu zaman Gəncədən olan bir neçə ailəni də öz hesabına doğma şəhərə qaytarıb.

1937-ci ildə Azərbaycan SSRİ XDİK qərarı ilə Bala Məşədi, qardaşı Hacı Əli Qasımoğlu ilə birlikdə həbs olunub. 1937-ci il oktyabr ayının 29-da hər iki qardaşı – Bala Məşədini 67 yaşında, Hacı Əlini isə 81 yaşında Nargin adasında güllələyiblər. [51]



**Abdulla bəy Əfəndizadə** (1873-1926) – tanınmış maarif xadimi, pedaqoq, yazıçı və tərcüməçi. Azərbaycan parlamentinin (1918-1920) Nuxa şəhərindən seçilmiş deputatı, Məclisi-Müəssisan seçkiləri üçün layihə, "Əfv-ümumi, Maliyyə və büdcə, Mərkəzi" seçki komissiyalarının və Xaricə göndəriləcək tələbələri seçmək üçün xüsusi komissiyanın üzvü olub. "Əhrar" və "Sol müstəqillər" fraksiyasında təmsil olunub. Rəşid bəy Əfəndiyevin qardaşı, Hikmət Ziyanın babasıdır.

1906-cı ildə "Rüstəmin yuxusu" adlı kitabı, 1908-ci ildə Süleyman Sani Axundov və Fərhad Ağazadə (Şərqli) ilə birlikdə tərtib etdikləri "İkinci il" məktəb dərsliyi, 1914-cü ildə "Şagirdlərə hədiyyə" adlı kitabı, 1919-cu ildə Nuxadakı "Mədəniyyət" mətbəəsində siyasi lirika janrında qələmə aldığı "Hər ürəkdə zəbt olubdur: ya ölüm, ya Türkiyə!" adlı kitabçası çap olunub.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin parlamentinə üzv seçilən Əfəndizadə Maarif Nazirliyinin əlifba islahatına dair təşkil etdiyi komissiyanın tərkibində çalışıb. Müzakirəyə təqdim etdiyi əlifba layihəsi komissiya tərəfindən bəyənilib. 1919-cu ildə Əfəndizadənin tərtib etdiyi əlifba əsasında müstəqil dövlətin "Son türk əlifbası" adlı əlifba dərsliyinin nəşrinə icazə verilmişdir.

Rus şairlərindən İ.A.Krılovun, M.Y.Lermontovun və başqalarının şeirlərini Azərbaycan dilinə tərcümə edib. [19, s. 253-263]

Azərbaycan Cümhuriyyəti Məclisi – Məbusanının fəal üzvlərindən biri olan Abdulla bəy, çıxışlarında ölkədə mövcud olan sosial-iqtisadi problemləri daim qabardaraq, vətəndaşların rifah halının yaxşılaşdırılması istiqamətində əsaslandırılmış təkliflər irəli sürmüşdür. Bu baxımdan onun səhiyyə və təhsilin inkişafı, xüsusən də əhaliyə göstərilən səhiyyə xidmətinin keyfiyyətinin artırılması və təhsil işçilərinin əməkhaqlarının artırılaraq, möv-

cud bazar şərtlərinə uyğunlaşdırılması istiqamətindəki təklifləri aktuallığı ilə seçilir. O, çıxışlarında sosial problemlərin həlli zamanı ölkənin Bakı və Gəncə şəhərləri ilə yanaşı, əyalətlərə, xüsusən də olduqca acınacaqlı sosial-məişət şəraitinin mövcud olduğu kəndlərə diqqətin ayrılmasının vacibliyini qeyd edərək, "...vətənin canı kəndistandır" və "...Millətin parası millətin özünə məsrəf olunmalı"dır söyləyirdi. Ölkədə sosial ədalətin bərqərar olmasının vacibliyini daim çıxışlarında dilə gətirən Abdulla bəy, "...Biz böylə fikir edirik ki, millət tacirindən, varlısından ibarət deyil. O füqərayi-kasibədən ibarətdir ki, o milyonları təşkil edir" şəklində fikrini ifadə edir, həm aşağı təbəqədən olan şəxslərin sosial vəziyyətlərinin yaxşılaşdırılması, həm də xalqın arasına getməklə onlar arasında əldə edilmiş istiqlalın tarixi əhəmiyyətinin anladılmasına yönəldilmiş maarifləndirmə işinin təşkilinə ciddi ehtiyacın olduğunu qeyd edirdi. [12]

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə AMEA Nəsimi adına Dilçilik İnstitutunun Elmi şurasının qərarı ilə Abdulla bəy Əfəndizadə Azaqbəylinin "Son türk əlifbası" kitabı (elmi redaktor akademik Möhsün Nağısoylu) nəşr olunub. Kitabı institutun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Şəlalə Ana Hümmətli (transfoneliterasiya, tərtib, ön söz və qeydlərin müəllifi) nəşrə hazırlayıb. Nəşrə "Son türk əlifbası"nın fotofaksimilesi ilə birgə başqa əlyazma və çap materiallarının surəti də əlavə edilib. [53]

1926-cı ildə, 53 yaşında, Nuxada (indiki Şəki) vəfat edib.

**Qəbulzadə Abdulla əfəndi İbrahim (Hacıbaba) əfəndi oğlu (1853, Qax – 1943, Qax) –** 3 may 1879-da Zaqatala Dairəsinin Qax kəndində doğulub. Elmi ədəbiyyatda onun tərcümeyihalı haqqında indiyədək, demək olar ki, heç nə yazılmayıb. Yalnız Qax rayonundakı Əmbərçay kənd məktəbinin müəllimi Pəri xanım Novruzova "Şəlalə" rayon qəzetindəki "Ata və oğul" adlı məqaləsində onun həyatı ilə bağlı bir sıra məqamlara ilk dəfə toxu-



nub. Həmin yazıda oxuyuruq ki, Abdulla əfəndi "Dağıstanın Qazıqumuq kəndində ruhani məktəbini bitirmiş və Qaxın qazısı təyin olunmuşdu. İlahiyyatla yanaşı, kimyadan, riyaziyyatdan, digər elmlərdən hali idi. Zəngin kitabxanası var idi. Burada dinə, dünyəvi elmlərə, Şərq ədəbiyyatına dair kitabların, habelə əlyazmalarının toplandığını deyirlər. Təəssüf ki, kitabxanadan əsər-əlamət qalmamışdır".

Zaqatala 4 sinifli şəhər məktəbini bitirib (31.5.1897). Abdulla əfəndi də öncə yerli ruhanilərdən savad aldıqdan sonra Dağıstan üləmalarının yanında dini elmlərə yiyələnib. Sonralar 2 il Bağdadda oxuması sayəsində dünyəvi elmləri də dərindən mənimsəyib. Azərbaycana döndükdən sonra Qaxa qazı – şəriət məhkəməsinin hakimi təyin olunub. Qaxlılar onu sevgiylə "Qazı baba" adlandırıb.

XX əsrin əvvələrində Abdulla əfəndi həm də Qax məscidinin nəzdində məktəb açaraq müəllimlik edib. Onun bu məktəbdəki yetirmələri arasında 1954-1959-cu illərdə Azərbaycana rəhbərlik etmiş akademik İmam Mustafayev (1910-1997) də vardır.

İbtidai məktəb müəllimi və türk dili müəllimi adı almaq üçün Bakı şəhər birinci gimnaziyasında imtahan verib. "İstanbulda Rüşdiyyə məktəbində türk dili oxuyub" (ancaq Rusiyada həmin təhsil nəzərə alınmadığına görə sənədlərində bunu göstərməyib). 10 avqust 1905-ci ildə Qax normal məktəbinə türk dili müəllimi təyin edilib. 27 sentyabr 1910-da Bakı şəhər 5 saylı rus-türk məktəbinə müəllim əvəzi, 1 aprel 1911-də isə müəllim təyin edilib.

Onun "Qəvaidi-lisani-türki" (1902) adlı dərsliyindən Azərbaycan məktəblərində türk dili müəllimləri, "Rəhbəri-hesab" (1910) dərsliyindən isə riyaziyyat müəllimləri uzun illər yararlanıb. 1914-də "Səfa" cəmiyyətinin katibi seçilib.

1917-də müvəqqəti Zaqafqaziya hökuməti (Zaqafqaziya Komissarlığı) onu Zaqatala Dairəsinin komissarı təyin edib. 1918-in başlanğıcında Tiflisdə Zaqafqaziya parlamenti – Seym yaradılarkən o, Zaqatala Dairəsindən bir müsavatçı kimi buraya deputat seçilib (28.2.1918). Seym öz üzvlərindən onu və Hacı Mirzə Səlim Axundzadəni Şəki-Zaqatala bölgəsindəki milli münaqişələri öyrənməyə göndərib. Bu zaman gürcü quldurları onu tutaraq işgəncə veriblər. Bundan sonra İslam bəy bir daha Tiflisə dönməyərək Seym üzvlüyündən çıxıb (08.04.1918) və yenə Qaxda müəllimlik edib.

Tədqiqatçılar qeyd edirlər ki, Qafqaz İslam Ordusunun komandanı Nuru paşanın Qaxda səmimiyyətlə qarşılanması Abdulla əfəndinin adı ilə bağlıdır. Nuru paşa ilə Abdulla əfəndinin görüşü İslam bəy Qəbulzadənin evində olub. Unudulmamalıdır ki, əfəndi yalnız Nuru paşanın təmtəraqla qarşılanmasının təşkilatçısı olmaqla qalmayıb, həm də el arasındakı bütün nüfuzunu işə salaraq əhalini paşaya yardımçı olmağa səfərbər edib.

02.12.1919-da Müsavat partiyasının 2-ci qurultayı keçirilərkən o, qurultayın katibi seçilib. Bu qurultayda Zaqatala müsavatçılarının nümayəndəsi kimi təbrik çıxışı söylərkən deyib ki, partiyanın 1-ci qurultayının materialları ermənilər "İsmailiyyə"ni yandıran zaman məhv olsa da o, katib kimi qərarın mətnini qoruyub saxlayıb. Bu məlumatı qurultay alqışlarla qarşılayıb.

Qəbulzadə 16.01.1919-dan 16.10.1919-adək Azərbaycan Cümhuriyyəti Parlamentində "Əhrar" partiyasını və fraksiyasını təmsil etmiş, Qanun layihəsi komissiyasının üzvü olmuşdur. 25 yanvar 1919-cu ildə parlamentin sayca doqquzuncu iclasında komissiya tərəfindən baxılmış olan "Ədəmi-ictimai" qanunu Məhəmməd Əmin Rəsulzadənin müdafiəsinin ardından yekdilliklə qəbul edilir. Qanunun qəbulundan sonra parlamentin 4 fevral 1919-cu il tarixli sayca on ikinci iclasında Vladimir Ollonqren, Abdulla Qəbulzadə, Bəhram bəy Vəzirov, Bayram Niyazi Kiçikxanlı, Əli bəy Zizikski, Hacı Hüseyn Əfəndizadə və Rəşid bəy

Axundzadə hökumət qulluğundan istefa verərək, parlament üzvlüyünü qəbul etdilər.

Abdulla Qəbulzadə səhhəti və ailə vəziyyəti ilə əlaqədar parlament üzvlüyündən istefa vermişdir. Parlamentin 16 oktyabr 1919 tarixli səksən dördüncü iclasında Abdulla Qəbulzadənin uzun müddətdir xəstə olduğundan istefa etməsi ilə bağlı Zaqataladan göndərilmiş teleqram oxundu.

Abdulla bəy “Əhrar” fraksiyasını tərk etməsinə dair ərizəsi parlamentin 1 noyabr 1919-cu il tarixli 91-ci iclasına sədrlik etmiş Həsən bəy Ağayev tərəfindən məclis üzvlərinə təqdim etmişdir. 25 dekabr 1919-cu ildə onun yerinə oğlu Baba bəy Qəbulzadə parlamentin üzvü seçilmişdir.

XI ordunun işğalından sonra bolşeviklər “Qəbulzadə / Qəbulov” soyadını Qaxdan, demək olar ki, təmizlədi. Bu soyadı daşımaq o qədər qorxulu oldu ki, bir çoxları başqa soyad götürməyə, sənədlərdə hətta öz atalarının adını dəyişdirməyə (!), doğma yurddan cəlayi-vətən düşməyə məcbur oldular. Məhəmmədəmin Rəsulzadə “Azərbaycan Cümhuriyyəti” kitabında “istiqlal şəhidləri” adlandırdığı adamlar içərisində onun da adını ayrıca çəkib. [30]

Sovet dövründə də Qaxda yaşayan Abdulla əfəndini dəfələrlə Bakı Dövlət Universitetin şərqşünaslıq fakültəsində dərs deməyə dəvət etmişlər. Lakin o, ahıl yaşda olduğuna və səhhətinə görə getməmişdir.

Abdulla Qəbulzadə 1942-ci ildə həbs edilmiş, lakin yaşının çox olmasına görə bir neçə gündən sonra buraxılmışdır. Onu həbs edərkən kitabxanasında olan bütün kitabları yandırmışlar. O, 1943-cü ildə Qaxda vəfat etmiş, indiki Qax şəhər qəbiristanlığında dəfn olunmuşdur.

**Baba bəy Abdulla oğlu Qəbulzadə (1893-1937) –** 25 dekabr 1919-cu ildə atası Qəbulzadə Abdulla əfəndi İbrahim (Hacıbaba) əfəndi oğlu səhhəti və ailə vəziyyəti ilə əlaqədar parlamentdən istefa verdikdən sonra onun yerinə parlamentin üzvü seçilmişdir.



1937-ci ildə həbs olunduqdan sonra istintaq zamanı verilən suallara onun cavabları Baba bəy Abdulla oğlu Qəbulzadənin ictimai-siyasi fəaliyyəti haqqında dolğun təsəvvür yaradır:

**“Sual:** Keçmiş Müsavat parlamentində rolunuz və üzv kimi keçmiş işiniz haqqında ətraflı danışın.

**Cavab**: 1919-cu ildə Zaqatalada müsavat parlamentinə üzv seçilmişəm və buna görə 1919-cu ilin sonunda Bakıya gəlmiş və Parlamentin “Əhrar” fraksiyasında işə başlamışam. Azərbaycanın sovetləşdirilməsinədək Parlamentin bütün müşavirə və iclaslarında iştirak etmişəm.

**Sual:** “Əhrar” partiyasının üzvü kimi fəaliyyətiniz haqqında ətraflı danışın.

**Cavab:** “Əhrar” partiyasında 1920-ci ilədək, yəni Azərbaycanın sovetləşdirilməsinədək olmuşam. Mən “Əhrar” partiyasına girərkən bu əqidədə olmuşam ki, bu partiyanın xətti burjuaziya ilə proletariat arasındadır. O, kəndli partiyası sayılırdı. Rus dilinə tərcümədə “Əhrar” “azadlıqsevərlər” mənası verir... Mən Müsavat Parlamentində bu partiyanın nümayəndəsi olmuş və onun fraksiyasında işləmişəm. Başqa heç bir partiya tapşırığım olmayıb.

**Sual:** Müsavat partiyası xətti ilə nə vaxt və nə kimi işlər gördüyünüzü ətraflı danışın.

**Cavab:** Müsavat xətti ilə heç vaxt heç bir iş və tapşırıq yerinə yetirməmişəm, ümumiyyətlə Müsavat Partiyası ilə heç bir əlaqəm olmayıb”.

Sonra müstəntiq Zelenski Baba bəyi Məhəmmədəli Xəlifəzadə və Veysəl Mustafazadə ilə birgə müsavatçılıq təbliğatı aparmaqda suçlayır və müttəhim onlarla yalnız müəllim yoldaşı kimi əlaqədə olduqlarını bildirir.

Daha sonra müstəntiqin "Yeni Qafqaziya" ilə bağlı sualına Baba bəy aydınlıq gətirərək Məhəmməd Səid Ordubadinin məqaləsindən söz açır.

Növbəti maraqlı sual-cavablardan biri də Əliheydər Qarayevlə bağlıdır.

**"Sual:** Əliheydər Qarayevlə tanışlığınızın necə baş verdiyini danışın.

**Cavab:** Mən onunla Parlamentdən tanışam. O da keçmiş Müsavat parlamentinin üzvü olaraq "Hümmət" partiyası, menşevik və eserlərin sosialist blokunu təmsil edirdi. Sovetləşdirmədən sonra məni Bakıda yaşadığım mənzilimdən çıxardılar. O vaxt Əliheydər Qarayev Bakı Sovetində mənzil məsələlərinə baxırdı. Mən ona şikayətlə müraciət etdim və o, mənim mənzildən çıxarılmağımı ləğv etdi".

Göründüyü kimi, Baba bəy gerçək olan heç nəyi danmır. Ancaq o, müstəntiqin təkidli suallarına baxmayaraq sovet hakimiyyətinə qarşı heç bir əksinqilabi iş aparmadığını söyləyir.

1920-ci ilin may ayında Xüsusi şöbə orqanları Qax kəndində həbs edib, 16 gün həbsdə qaldıqdan sonra Bakıya göndərilib, orada azad ediblər. İkinci dəfə Azərb. Baş Siyasi İdarəsi (BSİ) 11.06.1927-ci ildə Qax kəndində həbs etdikdən sonra Zaqatalaya, oradan da Şəkiyə, daha sonra Bakıya göndərilib. Onunla birlikdə həbs edilənlər arasında "Əhrar" partiyasının keçmiş üzvü, müəllim Nurullah əfəndi Qazızadə də olub.

1937-ci ilə aid Baba bəyin AR Milli Təhlükəsizlik Nazirliyinin arxivində saxlanılan istintaq işində aşağıdakı məlumatlar var:

Azərbaycan Xalq Daxili İşlər Komissarlığı (XDİK; "NKVD") Qax rayon şöbəsi rəisi Asanovun 14 fevral 1937-də Şəkidəki həmkarına göndərdiyi məktubdan aydın olur ki, B.b.Qəbulzadəni tutmağa həmin vaxtdan hazırlaşırlarmış. Nuxa (Şəki) rayon 10-

cu əməliyyat qrupunun rəisi Çernov 27 avqust 1937-də Azərb. XDİK Vartaşen, Bərdə, Balakən və Ağdam rayon şöbələrinin rəislərinə məktub göndərərək tələb edir ki, bu "iri obyekt"i ərazinizdə səylə axtarın, tutsanız mənə xəbər verin. Çekistlər onun sorağını gah Qaxın Güllük kəndindən, gah Gəncədən, gah Zaqataladan, gah Bakıdan... alırlar.

Nəhayət "İnturist"də sədr Məmməd Məmmədovu taparaq dostu Baba bəyi həmin otelə çağırmağa onu məcbur edirlər (halbuki həmin Məmmədov indiyədək Baba bəyi tutulmaqdan qurtarmağa çalışırdı) və ayın 18-də Qax çekistləri onu burada həbs edərək Bakıda məsul növbətçiyə təhvil verirlər. Qızlarının dediyinə görə, 1937-də sonuncu dəfə həbs ediləndə Qaxdakı evində axtarış aparan çekistlər nəinki bütün sənədlərini, hətta xoşlarına gələn qab-qacağı da götürüb aparıblar.

NKVD üçlüyünün 15 dəqiqəlik məhkəməsi 1 ay 1 gündən sonra – 19 oktyabr 1937-də Baba bəy haqqında ölüm hökmü çıxarıb. Suxanov və Koqanın imzaladığı akta inanmalı olsaq, hökm 10 gün sonra – 29 oktyabrda gecə saat 2.20-də yerinə yetirilib.

1959-cu ildə qohumları ona bəraət verilməsi barədə müraciət etsələr də, nəticəsiz olmuşdur. Baba bəy yalnız 1989-cu ildə bəraət alıb. İstintaq işində adı keçən Nurullah əfəndi Mahmud oğlu Qazızadə 14.1.1938-də 62 yaşında, Məhəmməd Vahab oğlu Yusifov isə 16.3.1938-də 60 yaşında güllələniblər. [31]



**Məşədi Səməd Həsənoğlu** – (1885 - ?) Azərbaycan parlamentinin (1918-1920) Gəncə qəzasından seçilmiş deputatı. Məşədi Səməd Kərbəlayı Məmmədhəsən oğlu 1885-ci ildə Şamux rayonun Sərkar kəndində anadan olub.

Azərbaycan Dövlət Arxivinin 895-ci fondundakı iki işdə Məşədi Səmədin deputatlıq fəaliyyəti haqqında etibarlı sənədlər

saxlanılır. Bunların birində 24 fevral 1920-də Gəncə valisi (qubernatoru) Xudadad bəy Rəfibəyovun Azərbaycan Cümhuriyyəti daxili işlər nazirinə göndərdiyi 3102 saylı raportda Gəncə vilayəti müsəlmanlarının Sərkar kəndinin sakini Məşədi Səməd Kərbəlayı Məhəmmədhəsən oğlunu Azərbaycan Parlamentinə seçdikləri və həmin Parlamentdə iştirak etmək üçün Bakıya getməkdən ötrü ona lazımi mandat verildiyi bildirilir.

Digər sənəddə isə göstərilir ki, 11 mart 1920-ci ildə Məclisi-Məbusan (Parlaman) özünün 133-cü iclasını keçirir. Sədr Məhəmmədyusif Cəfərov, katib Rza bəy Qaraşarlıdır. Rza bəy Məşədi Səmədin "Əhrar" fraksiyasına mənsub olması haqqında ərizə verdiyini bildirir. Azərbaycan Məclisi-Məbusanı Divani-rəyasətinə yazılmış həmin ərizə arxivdə saxlanır: "Möhtərəm əfəndim! Türk el firqəsi "Əhrar"ın üzvü olub Parlamanda həman fraksiyona daxil olduğum rəsmən elan edilməmişdir. Binaənəleyh zatialiniz məzkur fraksiyona daxil olduğumu elan edəsiniz. Parlaman əzası Məşədi Səməd Həsən oğlu".

Məşədi Səməd 19 fevral 1920 - 27 aprel 1920-ci il tarixində əvvəl fraksiyasız fəaliyyət göstərmiş, sonradan "Əhrar" fraksiyasına üzvü kimi parlamentdə fəaliyyət göstərib. Onun Gəncəbasarda çoxlu dostları olub. Onların içərisində Qaçaq Məhəmmədqasım və Dəli Alıya ayrıca sevgi bəsləyib.

Azərbaycanda Xalq Cümhuriyyətinin süqutundan sonra sovet hakimiyyətinin ilk illərində kənddə bacarıqlı adamlara ehtiyac olduğundan repressiyaya məruz qalmayıb. Məşədi Səməd sovet hakimiyyətinin ilk illərində kənd soveti sədri işləyib. Hətta belə bir məsəl də yaranıbmış: "Kənd soveti Məşədi Səməd – katib Məşədi Səməd". Ancaq hakimiyyət gücləndikcə ona qarşı təzyiqlər artıb. Onun Sərkardakı ikimərtəbəli mülkünü əlindən alıb xəstəxana ediblər. Aramsız təqiblərdən bezmiş Məşədi 1920-ci illərin başlanğıcında el-obasını, yurdunu tərk etməyə məcbur olub, Güney Azərbaycana mühacirət edib. Məşədi Səmədin 1947-də Təbriz yaxınlığında Qaradağın mərkəzi olan Əhər şəhərində yaşaması haqqında oradan Samuxa gəlmiş Demokrat Həsən məlumat verib.

Məşədi Səmədin Azərbaycan Xalq Cümhuriyyətindəki fəaliyyətinə görə onun qohumlarının başına çox müsibətlər gətirilib. Oğullarını "KQB" məhv edib. Ona qohumluğu çatan insanların vətəndaş hüquqlarından məhrum edilməsi hətta 1970-1980-ci illərədək sürüb. Qardaşı Həmzənin nəvəsi, Gəncə Şəhər Baş Polis İdarəsinin əməkdaşı, polkovnik-leytenant Məhəmməd Yolçu oğlu Hümbətov (1954) bu təqiblər barədə belə deyir: "1976-cı ildə məni təhlükəsizlik orqanlarında işə götürmək istəyirdilər. Sənədlərimi hazırlayandan bir həftə sonra bildirdilər ki, "sənin baban Müsavat Parlamentinin deputatı olub", ona görə də o iş bir daş altda, bir daş üstdə qaldı...

Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin deputatı Məşədi Səmədin nə vaxt və harada vəfat etməsi haqqında hələlik dəqiq məlumat yoxdur. Hətta onun sonradan Cənubi Azərbaycandan Türkiyəyə getməsi və orada vəfat etməsi haqqında ehtimallar da var. [32]



**Əşrəf bəy Həsən bəy oğlu Tağıyev (1867–1930)** Azərbaycan parlamentinin (1918-1920) Ərəş qəzasından seçilmiş deputatı. 15 dekabr – 17 mart 1919-cu il tarixində "Əhrar", 17 mart 1919 – 27 aprel 1920-ci il tarixində "Müsavat və bitərəflər" fraksiyalarında təmsil olunub.

Əşrəf bəy Həsən bəy oğlu Tağıyev 1867-ci ildə Nuxa qəzasının Qarxun kəndində (Hazırda Yevlaxın Yuxarı Qarxunlu kəndi) anadan olub. Dini təhsillə yanaşı, Tiflisdə də oxuyub. 1908-ci ildə Yevlaxda mazutla işləyən zavod tikdirir, 1910-cu ildə öz xərci ilə Yuxarı Qarxun kəndində dörd sinifli, 1919-cu ildə isə yeddi sinifli rus-tatar məktəbi açdırır. 1918-ci il mart qırğınından sonra Əşrəf

bəyin təklifi ilə erməni qırğınının qarşısını almaq məqsədilə könüllü dəstələr yaradılır.

Əşrəf bəy Tağıyev 1918-20-ci illərdə rus-türk ordu komandirlərinin tərcüməçisi olub. O, Ərəş mahalının bəylərbəyi, Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü, hökumət nümayəndəsi idi. Əşrəf bəy həmçinin Əhrar Partiyasının yaradıcılarından olub.

Azərbaycana köməyə gələn və Gəncədən Bakını azad etməyə yollanan Qafqaz İslam Ordusunun komandanı, general Nuru Paşanı 1918-ci ilin iyulunda Yevlax stansiyasında qarşılayıb. Nuru Paşa onun evində qonaq olub. Xeyirxah, səxavətli və mərd adam kimi camaat arasında, özünün topladığı "Ərəş alayı" ilə erməni-daşnaklara qarşı vuruşmalarda ad çıxarmasıyla yaddaşlarda qalıb.

Sovet hakimiyyəti qurulduqda təcrübəli kadr kimi bir müddət hərbi tərcüməçi işləyib. Lakin sonra keçmişinə görə təqib olunub, bir neçə dəfə (7 oktyabr 1924, 27 yanvar 1930) həbs edilib, ilk əvvəl 10 il həbs cəzasına məhkum olunub, ancaq sonra bu ölüm cəzası ilə əvəzlənib. Əşrəf bəy 1930-cu il martın 3-də 63 yaşında "xalq düşməni" kimi Bakıda güllələnib. Şəmistan Nəzirli onun ictimai siyasi fəaliyyəti haqqında "Qarxunlu Əşrəf bəy" kitabını yazıb. [5;21;44;45;54]

Azərbaycan Xalq Cümhuriyyəti XI sovet ordusu tərəfindən işğal olunduqdan sonra tüğyan edən repressiyanın ilk qurbanlarından biri "Əhrar" partiyasının üzvü, parlamentdə Göyçayı təmsil etmiş Hacı Hüseyn Hacı Abdulla oğlu Əfəndiyev olmuşdur. Sonrakı illərdə də Azərbaycan əhalisinə qarşı bu cinayətlər davam etmişdir. Faktlar sübut edir ki, 1930-1940-cı illərdə və 50-ci illərin əvvəllərində Azərbaycanda 70 min adam repressiyaya məruz qalmışdı ki, bunun da 29 min nəfəri ziyalı idi. Təkcə 1937-ci ildə 16 Azərbaycan generalı qətlə yetirilmişdi. Repressiya illərində Qazaxstana sürgün olunmuş azərbaycanlılardan 150 mini öldürülmüş, onlardan 28 min nəfəri məhkəmə və istintaq olmadan güllələnmişdi. [36, s.152]

Azərbaycan Xalq Cümhuriyyəti qurucularından biri, "Əhrar" partiyasının üzvü, parlamentdə Göyçayı təmsil etmiş Hacı Hüseyn Hacı Abdulla oğlu Əfəndiyevin ictimai-siyasi fəaliyyətinin bundan sonra daha geniş tədqiq edilməsi aktual olaraq qalır. Gələcəkdə tarixçilərin bu mövzuya yenidən müraciət etməsinə, görkəmli şəxsiyyət haqqında yeni-yeni kitab və elmi məqalələr yazmalarına ciddi ehtiyac var.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Azərbaycan tarixi. 3 cilddə, 3-cü cild, 1-ci kitab. Bakı, Elm, 1973, 548 s.
2. Azərbaycan tarixi. Yeddi cildlik. V cild", Bakı, 2008, 527 s
3. Azərbaycan tarixi. Yeddi cilddə. VI cild (aprel 1920 - iyun 1941). Bakı. "Elm". 2008. 568 səh. + 48 səh. illüstrasiya.
4. Azərbaycan Xalq Cümhuriyyəti Ensklopediyası. İki cilddə I cild. "Lider nəşriyyatı." Bakı 2004, 440 s.
5. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə II cild. *Bakı*: "Lider". 2005. səh. 419.
6. "Azərbaycan Cümhuriyyəti Parlamenti (1918–1920). Parlament (stenoqrafik hesabatlar)", I cild Bakı, 1998, 976 s.
7. Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları. (portret-oçerklər və məqalələr) Bakı, "Elm və təhsil", 2018, 248 səh.
8. Azərbaycan Xalq Cümhuriyyəti: 100 sual, 100 cavab.– Bakı: Mütərcim, 2018. – 148 səh.
9. Abdullayeva N. AXC-nin aqrar iqtisadiyyatı.Palitra.26 may2018, № 94, s. 7.
10. Ağabəyov S.S., Ağabəyov Y.Ə., "Ağabəylilər", Bakı, 2008, 248 s.
11. Ahmadov İ. "Ömrünü vətəni üçün fəda edən, mis kasa ilə başlayıb milyonluq miras Qərib" – Sputnik Azərbaycan, 19.01.2020. https://sputnik.az/20200119/omrunu-veteni-ucun-feda-eden-mis-kasa-il-baslayib-milyonluq-miras-qoyan
12. Baxışov V. Abdulla bəy Əfəndizadə (1873-1926)-Ədalət.-2018.-14 iyun. - s.7.
13. Baxşalıyev S. Cümhuriyyət dövründə aqrar islahat təşəbbüsləri. Palitra. - 26 may2018, № 94, s. 7.
14. Bünyadov Z. Qırmızı terror. Bakı,Azərnəşr,1993, 331 s.
15. Əsgərli G.H. "Məclis-i Məbusan Türkiyə Böyük Millət Məclisinə necə çevrildi və ya II Əbdülhəmiddən Atatürkə gedən yol.." "Müsavat" qəz. 27.05.2023
16. Göyçay ensklopediyası. Bakı 2023,684 s.
17. Giorgi Mamulia, Ramiz Abutalbov. Odlar yurdu azadlıq va müstəqillik uğrunda mübarizadə. Azərbaycan mühacirətinin siyasi

tarixi (1920-1945). Bakı: TEAS Press Nəşriyyat evi. Aydın Balayev. 2015. 464. ISBN 978 9952 494 72 3.
18. Həmidqızı Ə. Düyərlinin yazılmamış dastanının qəhrəmanları. Gəncə: 2020.
19. Mərdanov M, Tahirzadə Ə. ƏFƏNDİZADƏ (AZAQBƏYLİ) Abdulla bəy İsmayıl əfəndi oğlu // 1920-ci ilədək ali məktəblərdə oxumuş azərbaycanlılar. (Ensiklopedik soraq kitabı).. — Bakı: Təhsil, 2019. — II cild.
20. Nərimanov N. Ucqarlarda inqilabımızın tarixinə dair (İ.V. Stalinə məktub). B.: Azərnəşr, 1992, 80 s.
21. Nəzirli Ş. Qarxunlu Əşrəf bəy. Bakı: "Elm və həyat" nəşriyyatı, 1998, 180 səh.
22. Paşa Yaqub, "Cəlil bəy". Bakı, "Zərdabi LTD" MMC, 2015, 120 səh.
23. Qənbərov A. Azərbaycanda dövlət-din münasibətləri: dünyəviliyin nəzəri və hüquqi əsasları.Bakı, "Nurlar" Nəşryyat-Poliqrafiya Mərkəzi, 2019, 216 səh
24. QƏDİROV M. Vətənpərvər maarifçi alim: Muxtar Əfəndizadə 525-ci qəzet.- 2010.- 28 yanvar.- S.8.
25. Rəhmanzadə, Şamil (2000), Azərbaycan-Gürcüstan münasibətlərində ərazi məsələləri: Azərbaycanın şimal-qərb bölgəsinin materialları əsasında: 1917-1930-cu illərin əvvəlləri
26. Süleymanova S., Azərbaycanda ictimai-siyasi hərəkat, B., 1999
27. Süleymanlı M. Azərbaycan kulturoloji fikir tarixindən (XX əsrin əvvəlləri). Bakı, "Nafta-Press", 2011, 208 s.
28. Şəmistan NƏZİRLİ, "1920-ci ildə Qarabağ döyüşləri", Bakı-2009, 480 səh.
29. Tahirzadə Ədalət. Nuruzadə Hacı Axund Əhməd Hacı Piri oğlu. № 78). 525-ci qəzet. 2008.
30. Tahirzadə Ədalət Qəbulzadə Abdulla əfəndi İbrahim (Hacıbaba) əfəndi oğlu (1853, Qax-1943, Qax) 525-ci qəzet.- 2010.- 3 aprel.- S.26.
31. Tahirzadə Ədalət QƏBULZADƏ BABA BƏY ABDULLA ƏFƏNDİ OĞLU (10.12.1893, Qax – 29.10.1937, Bakı). 525-ci qəzet, 21,29 oktyabr, 3 noyabr 2011 05 noyabr 2011
32. Tahirzadə Ədalət MƏŞƏDI SƏMƏD KƏRBƏLAYI MƏHƏMMƏD-HƏSƏN OĞLU (1885, Sərkar kəndi/Samux rayonu – 1945-dən sonra, ?)

33. Tural Həmid “Zaqatala problemi” Gürcüstan, Dağıstan və Azərbaycan üçbucağında. 25 iyul 2019 https://azlogos.eu/zaqatala-problemi-dagistan-gurcustan-və-azərbaycan-ucbucaginda/
34. Yaqublu N. Məhəmməd Əmin Ensklopediyası. Bakı 2013, 504 s.
35. Yaqublu N. CÜMHURİYYƏT QURUCULARI Bakı, “NURLAR” Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2018, 504 səh.
36. Zülfüqarlı M.P. Tarixşünaslıq (1920-1991-ci illər) Azərbaycan tarixi – DƏSRLİK. Bakı “MEKAN SERVES NN” 2017, 486 s.
37. Zülfüqarlı M.P., “İkinci Respublikanın tarixi (1920-1991-ci illər)”, Bakı, 2020, 310 s.
38. Zülfüqarlı M.P. Göyçay tarixi. ISBN, Bakı 2022,310 s.
39. Zülfüqarlı M.P. Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti çoxpartiyalılıq nümunəsi idi. Xalq qəzeti. - 2022.- 28 may.- № 112, s. 14.
40. “Tarix” qəzeti
41. https://azerbaijan.az/ /portal/History/HistDocs/Documents/04.pdf
42. https://azertag.az//xeber/Tarix_Muzeyi_Istiqlal_Beyannamesinin_nusxeleri_Milli_Ensiklopediyanin_novbeti_cildinde_yer_alacaq-2044
43. https://azertag.az/xeber/Azerbaycan_Xalq_Cumhuriyyetinin_bolsevikler_terefinden_isgali-1474563
44. https://1905.az/natiq-məmmədzadə-cumhuriyyət-xadimləri-etatist-idilər/
45. https://www.idealonline.com.tr/IdealOnline/lookAtPublications/paperDetail.xhtml?uId=111781&
46. https://toplum.tv/siyaset/cumhuriyyeti-quranlarin-sonu-surgun-gullelenme-muhaciret
47. ttps://hafta.az/cumhuriyyet-dovrunde-aqrar-islahat-tesebbusleri-218405-xeber.html
48. https://azerbaijan.az/ /portal/History/HistDocs/Documents/04.pdf
49. kulis.az. 2021-08-13 tarixində . İstifadə tarixi: 13 avqust 2021.
50. modern.az. 2021-08-13 tarixində . İstifadə tarixi: 13 avqust 2021
51. Azadlıq.- 2012.- 16 noyabr.- S.14.
52. Mədəniyyət qəz. 6 yanvar .- 2017

53. Mədəniyyət qəz. 26 dekabr 2018
54. Paralel qəz. - 2018.- 19-21 may. - № 90. - S. 13
55. https://gancapost.info/az/article/4730/gence-muselman-xeyriyye-cemiyyeti-tarix/
56. https://haqqinda.az/Azərbaycan+Demokratik+Respublikası/42715Aslan+bəy+Qardaşov+Həyatı.html
57. ensiklopediya.gov.az/az/terms/17944/cild/20

***Türk dilində***

58. Akşin, *Türkiye Tarihi*-C.4,Edt. Sina Akşin, Cem Yayınları, 6.baskı, 2000, s.27.
59. Hüseyin Cahit, *Siyasal Anılarım*, Türkiye İş Bankası Yayınları, İstanbul, 2000, s.32.
60. Mehmetzade M.B. Azerbaycan Muhacirlik Matbuatının Otuz Yıllığı (1923-1953) // "Azerbaycan", Ankara, Yıl: 2, Ekim, 1953, Sayı: 7 (19),
61. Osmanlı Ahrar Fırkasının Kuruluşu, Faaliyetleri ve Sonu. Şenol Kalu. https://dergipark.org.tr/ tr/download/article-file/791514
62. Qasımlı M, Azerbaycan Türkleri'nin Millî Mücadele Tarihi 1920-1945, Türkçesi:Ekber N. Necef, Kaknüs Yay., İstanbul, 2006, s.176
63. Saday-ı Millet, "Beyanname", 17 Kanunusani 1325 - 30 Ocak 1910, No:61, s.1. Tunaya, Siyasi Partiler, C.1, s.203-204.
64. Siyasi Partiler". Türkiye Büyük Millet Meclisi. 27 Mayıs 2016 tarihinde kaynağından arşivlendi. Erişim tarihi: 24 Ekim 2011.
65. Swietochowski Tadeusz. Müslüman Cemaatten Ulusal Kimliye Rus Azerbaycanı 1905-1920. Nuray Mert (çev.), Ankara: Bağlam Yayınları, 1988.

***Rus dilində***

66. Очерки истории Коммунистической партии Азербайджана. Баку, 1986, стр. 432.





*Hacı Hüseyn Hacı Abdulla oğlu Əfəndiyevin əmisi Məmməd Əfəndiyevin Bərdənin Lənbəran kəndində tikdirdiyi məscidin qalıqları*

*Kitab «Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzində səhifələnmiş və çap olunmuşdur.*

Çapa imzalanıb: 01.05.2024
Format: 60x84 1/16. Qarnitur: Cambria.
Həcmi: 4.75 ç.v. Tiraj: 100. Sifariş № xx.

TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ

Az 1014, Bakı, Rəsul Rza küç., 125/139b
Tel./faks 596 21 44
*e-mail: mutarjim@mail.ru*
*www.mutercim.az*